RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 178 (10198) 30 sentyabr 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Ölkəmizlə FIFA arasında uğurlu əməkdaşlıq qurulub

### Prezident İlham Əliyev FIFA-nın prezidentini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da FIFA-nın prezidenti Canni İnfantinonu qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev dünyada, o cümlədən Azərbaycanda futbolun dövlət səviyyəsində inkişafı ilə bağlı görülən işlərə verdiyi dəstəyə görə Canni İnfantinoya təşəkkür etdi.

2

## Əməkdaşlıq, dialoq və etimad ünvanı



### Azərbaycanda keçirilən mötəbər tədbirlər ölkəmizin qlobal nüfuzunun, aparıcı mövqeyinin və birləşdirici rolunun əyani təzahürüdür

Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq tədbirlər iqlim dəyişikliyi ilə mübarizədən tutmuş şəhərsalma, mədəniyyət, humanitar diplomatiya və mənəvi irsin qorunmasına qədər ən müxtəlif strateji sahələri əhatə edir. Qlobal iqlim diplomatiyasının zirvəsi sayılan COP29-dan sonra BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13) ölkəmizdə uğurlu təşkili, müntəzəm olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, Qoşulmama Hərəkatına sədrliyi dövründə təşkil edilən Zirvə görüşləri beynəlxalq ictimaiyyətin Azərbaycanın təşkilatçılıq qabiliyyətinə və vasitəçilik missiyasına verdiyi böyük qiymətin sübutudur. Bununla yanaşı, Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı və böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans ölkəmizin öz tarixi-mənəvi irsinə sadiqliyi ilə yanaşı, türk dünyası və islam aləmində mənəvi həmrəyliyi yüksək səviyyədə təmin etdiyini də ortaya qoydu.

Bütün bu mühüm forumlar, beynəlxalq konfranslar, iqtisadi və təhlükəsizlik platformaları Azərbaycanın sadəcə qlobal tədbirlərə evsahibliyi edən coğrafi məkan olmadığını, eyni zamanda qlobal ideyaların müəllifi, sülhün, təhlükəsizliyin, iqtisadi bağlantıların və sivilizasiyalararası dialoqun fəal təşəbbüskarı olduğunu təsdiqləyir. Ziddiyyətlərin kəskinləşdiyi dövrdə tərəfdaşlıq üçün Bakının seçilməsi, fərqli siyasi qütblərin və nəhəng investorların ölkəmizdə bir araya gələrək əməkdaşlıq yollarını müzakirə etməsi Azərbaycan dövlətinin artan nüfuzunun, Prezident İlham Əliyevin beynəlxalq miqyasda qəbul olunan liderliyinin əyani göstəricisidir.

5

## İlham Əliyev Məsud Pezeşkianı təbrik edib

**Sentyabrın 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkiana zəng edib.**



Dövlətimizin başçısı Prezident Məsud Pezeşkianı ad günü münasibətilə təbrik edib, ona möhkəm cansağlığı, uzun ömür və fəaliyyətində uğurlar arzulayıb.

İran Prezidenti göstərilən diqqətə və təbrikə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Telefon danışığı zamanı dövlət başçıları Bişkekdə keçirilmiş son görüşlərini və həmin görüşdə müzakirə olunan məsələləri məmnunluqla xatırlayıblar.

Azərbaycan Hökuməti nümayəndə heyətinin hazırda İranda səfərdə olduğu və səfər çərçivəsində ikitərəfli münasibətlərin gündəliyində duran məsələlər üzrə müzakirələrin aparıldığı qeyd edilib.

*Prezidentin Mətbuat Xidməti*

## Canni İnfantino Prezident İlham Əliyevlə görüşü ilə bağlı paylaşım edib

**FIFA prezidenti Canni İnfantino Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirib.**




AZƏRTAC xəbər verir ki, 56 yaşlı funksioner bu barədə "İnstaqram" hesabında paylaşım edib.

"Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşməkdən şərəf hissi duydum. FIFA-ya verdiyi dəstəyə, tarixdə ilk dəfə keçiriləcək U-15 dünya çempionatı və festivalına evsahibliyinə görə cənab Prezidentə təşəkkür etdim.

Azərbaycan Prezidenti gənclərə imkan yaratmaq və icmaları birləşdirmək baxımından futbolun rolunu gözəl başa düşür. Azərbaycan Futbol Federasiyaları Assosiasiyası ilə birgə futbolun inkişafı layihələrini davam etdirərkən Prezident İlham Əliyevin dəstəyini hiss etməkdən məmnunluq duyuram", - deyə paylaşımda qeyd olunub.

## "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"




Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan insanlar üçün doğma torpağa ayaq basmaq, ata-baba ocağını yenidən görmək, əzizlərinin məzarlarını ziyarət etmək ən ülvi arzular sırasında dayanırdı. Müharibənin ilk günlərində edilən həmin dua bu baxımdan yalnız bir müraciətin ifadəsi deyil, bütöv bir xalqın illərlə qəlbində yaşatdığı istəyin təcəssümü kimi yadda qaldı.

Azərbaycan Ordusunun 44 gün davam edən hərbi əməliyyatları nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri, eləcə də yüzlərlə yaşayış məntəqəsi işğaldan azad edildi. Noyabrın 8-də Şuşanın azad olunması müharibənin gedişində dönüş nöqtələrindən birinə çevrildi. 2020-ci ilin sentyabrında böyük ümidlə başlanan mübarizə ölkəmizin ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Lakin bu tarixi nəticənin arxasında əvəzsiz itkilər dayanırdı. Qarabağın azadlığı uğrunda döyüşən minlərlə igid şəhidlik zirvəsinə ucaldı. Onların hər biri bir ailənin övladı, bir ananın ümidi, bir atanın qüruru, bir övladın dayağı idi.

4

## Vətən müharibəsinin hər günü şanlı tariximizdir



2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərini ağır silahlardan atəşə tutmasından sonra Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. Həmin gün ölkədə hərbi vəziyyətin elan olunması barədə qərar qəbul edildi. Beləcə, tariximizə Vətən müharibəsi kimi daxil olan 44 günlük mübarizə başladı.

Müharibənin ilk günündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciəti qarşıdakı mübarizənin əsas siyasi və mənəvi mesajını ifadə etdi. Dövlət başçısı çıxışını sonradan Zəfərin rəmzlərindən birinə çevriləcək sözlərlə tamamladı: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

7



# Ölkəmizlə FIFA arasında uğurlu əməkdaşlıq qurulub

## Prezident İlham Əliyev FIFA-nın prezidentini qəbul edib

*Əvvəli 1-ci səh.*

Dövlətimizin başçısı gələn ay ölkəmizdə ilk dəfə 15 yaşadək oğlan futbolçular arasında təşkil olunacaq (FIFA U-15) dünya çempionatı və festivalına, həmçinin 2027-ci ildə keçiriləcək 20 yaşadək kişi futbolçular arasında dünya çempionatına (FIFA U-20 World Cup) hazırlıq işlərinin yüksək səviyyədə aparıldığını bildirdi. Azərbaycanın bu idman tədbirlərində iştirakının önəmini vurğulayan Prezident İlham Əliyev bütün bunların ümumilikdə regionda futbolun inkişafına töhfə verəcəyinə ümidvarlığını ifadə etdi.

Canni İnfantino qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.



Qonaq ilk dəfə ölkəmizdə keçiriləcək 15 yaşadək oğlan futbolçular arasında dünya çempionatı və festivalının önəminə toxunaraq, dünyanın idman ictimaiyyətinin diqqətinin bu tədbirə yönələcəyini dedi.

Görüşdə Azərbaycanda futbolun inkişafı ilə bağlı görülən işlərdən söhbət açıldı, son dövrlərdə bu sahədə əldə edilən uğurlara toxunuldu.

Ölkəmizlə FIFA arasında uğurlu əməkdaşlığın qurulduğu vurğulanaraq, tərəfdaşlığın perspektivləri müzakirə olundu.

Söhbət zamanı Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) FIFA-nın fəaliyyətinə verdiyi dəstək məmnunluqla qeyd edildi.

Canni İnfantino Prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim etdi.











# Bakıda Slovakiyanın milli bayramı - Konstitusiya Günü qeyd olunub



Sentyabrın 29-da Slovakiyanın milli bayramı - Konstitusiya Günü münasibətilə Bakıda tədbir keçirilib.

AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova bu əlamətdar gün münasibətilə Prezident İlham Əliyevin səmimi təbriklərini və ən xoş arzularını çatdırıb. Spiker bildirib ki, ölkə rəhbərlərinin siyasi iradəsi və ikitərəfli əlaqələrə ardıcıl yanaşması sayəsində Azərbaycan-Slovakiya münasibətləri qısa müddət ərzində ən yüksək səviyyəyə - strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Spiker Sahibə Qafarova bildirib ki, bu gün fəal siyasi dialoqa əsaslanan ikitərəfli əlaqələr müxtəlif istiqamətlər üzrə gündən-günə genişlənməkdədir. İqtisadi-ticari, energetika, qarşılıqlı investisiya qoyuluşu, hərbi-texniki, mədəniyyət, təhsil, parlamentlərarası əlaqələr üzrə əməkdaşlığımız müsbət inkişaf dinamikası ilə fərqlənir.

Qeyd olunub ki, möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Slovakiya dostluq və strateji tərəfdaşlıq münasibətləri qarşıdakı illərdə də uğurla inkişaf edəcək, xalqlarımızın tərəqqisinə xidmət edəcək.

Slovakiyanın Baş nazirinin müavini və müdafiə naziri Robert Kalinak ölkələrimiz arasında münasibətlərin inkişafını qeyd edib, qarşılıqlı həyata keçirilən yüksəksəviyyəli səfərlərin və sıx təmasların əlaqələrimizin daha da genişləndirilməsinə töhfəsini vurğulayıb.

# Bakı ilk dəfə CAMCA Regional Forumuna evsahibliyi edəcək

**Oktyabrın 1-2-də Bakıda ilk dəfə Mərkəzi Asiya, Monqolustan, Cənubi Qafqaz və Əfqanıstanda (CAMCA) dialoqun, əməkdaşlığın və dayanıqlı iqtisadi inkişafın təşviqinə həsr olunmuş illik CAMCA Regional Forumu keçiriləcək.**

AZƏRTAC xəbər verir ki, sayca 12-ci dəfə baş tutacaq forum hökumət, biznes, akademik dairələr, vətəndaş cəmiyyəti və digər sahələri təmsil edən müxtəlif maraqlı tərəfləri bir araya gətirəcək.

Yüksəksəviyyəli dialoq və qarşılıqlı əlaqə üçün mühüm platforma kimi formalaşan CAMCA Regional Forumu 2014-cü ildə təsis olunduğu vaxtdan etibarən regional əlaqələrin möhkəmləndirilməsinə, qabaqcıl təcrübələrin bölüşdürülməsinə, habelə ümumi çağırış və imkanların həllinə yönəlmiş strateji tərəfdaşlıqların qurulmasına diqqət yetirir. Forum açıq müzakirələrin təşviqi vasitəsilə innovativ həllərin işlənib hazırlanmasına və regional inteqrasiyanın gücləndirilməsinə töhfə verməyi qarşıya məqsəd qoyur.

Bilik və təcrübə mübadiləsinə xüsusi önəm verən CAMCA Regional Forumu yeni nəsil və təcrübəli liderlərin əlaqələr qurması, əməkdaşlıq etməsi, eləcə də regionun inkişafına və gələcəyinə töhfə verməsi üçün unikal platforma yaradır. Forumun gündəliyinə iqtisadi artım, təhlükəsizlik, idarəetmə, innovasiya və digər mühüm məsələlər daxildir.

CAMCA Regional Forumu həyata keçirdiyi təşəbbüslər və hər il təşkil olunan toplantılar vasitəsilə dünyanın bu mühüm regionunda əməkdaşlığın daha da inkişaf etdirilməsinə və uzunmüddətli rifahın təmin olunmasına sadiqliyini nümayiş etdirir.

Forum indiyədək 11 dəfə təşkil olunub, 40-dan çox ölkədən 2000-dən artıq iştirakçı və 560-dan çox spiker bir araya gətirib.

# Baş nazirin müavini Şahin Mustafayev İran Prezidenti Məsud Pezeşkianla görüşüb



**Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə Tehranda səfərdə olan Azərbaycan nümayəndə heyəti İran Prezidenti Məsud Pezeşkian tərəfindən qəbul edilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Prezident İlham Əliyevin salamlarını Prezident Məsud Pezeşkiana çatdırıb. İran Prezidenti salamlara görə təşəkkürünü bildirib və öz növbəsində xoş arzularını ifadə edib. Görüş zamanı xalqlarımızın ortaq tarixi və mədəni bağlarının ikitərəfli əlaqələrin inkişafı üçün möhkəm zəmin yaratdığı qeyd olunub, Azərbaycan və İran arasında dostluq və mehriban qonşuluq münasibətlərinin mövcud vəziyyəti yüksək qiymətləndirilib. İki ölkə arasında iqtisadiyyat, ticarət, nəqliyyat və enerji sahələrində əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə edilib.

Regionda həyata keçirilən birgə layihələrin uğurla davam etdirilməsinin hər iki ölkənin və ümumilikdə bölgənin inkişafına mühüm töhfə verəcəyi vurğulanıb.

# Gədəbəy və Naftalan Rayon İcra Hakimiyyəti başçıları kollektivlərə təqdim olunub





Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı təyin olunan Hacıbaba Babayev sentyabrın 29-da Prezidentin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub. AZƏRTAC xəbər verir ki, təqdimatda çıxış edən Zeynal Nağdəliyev dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

Hacıbaba Babayev ona göstərilən etimada görə minnətdarlıq edib.

* * *

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı təyin olunan Məmmədiyə Məmmədov sentyabrın 29-da Prezidentin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev tərəfindən şəhər ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə kollektivə təqdim olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Zeynal Nağdəliyev çıxış edərək dövlətimizin başçısının tapşırıq və tövsiyələrini çatdırıb.

Məmmədiyə Məmmədov ona göstərilən etimada görə minnətdarlıq edib.




# Romada "Harmoniya" sənədli filminin təqdimatı olub

**Sentyabrın 28-də İtaliyanın paytaxtı Romada "Harmoniya" sənədli filminin təqdimat mərasimi keçirilib.** AZƏRTAC **xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.**



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu və Bakı Media Mərkəzinin birgə tərəfdaşlığı ilə ərsəyə gələn filmin baş prodüseri Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevadır.

Mərasimdə Azərbaycan nümayəndə heyəti ilə yanaşı, Müqəddəs Taxt-Tacın dövlət rəsmiləri, diplomatik korpusun və dini icmaların təmsilçiləri, din xadimləri iştirak ediblər.

Tədbirdən əvvəl Azərbaycanın zəngin dini-mədəni irsini və multikultural dəyərlərini təcəssüm etdirən fotostend də nümayiş olunub.

Təqdimatda çıxış edən Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov filmin ərsəyə gəlməsində əməyi keçən hər kəsə təşəkkürünü bildirərək deyib: "Harmoniya" sənədli filmi bizi müxtəlifliyin dünyagörüşümüzü necə zənginləşdirə və insanları bir-birinə necə yaxınlaşdıra biləcəyi haqqında düşünməyə dəvət edir. Bu gün təqdim olunan film eyni Vətəni - Azərbaycanı paylaşan müxtəlif dini ənənələrə mənsub üç gənc qadının hekayəsindən bəhs edir. Film onların gündəlik həyatı vasitəsilə sadə, lakin dərin bir mesaj ötürür: Dini fərqliliklər insanlar arasında məsafə yaratmamalıdır".

İslamın, xristianlığın və yəhudiliyin ölkəmizdə dərin köklərə malik olduğunu diqqətə çatdıran səfir deyib: "Məscidlər, kilsələr və çoxsaylı sinaqoqlar yalnız bu müxtəlifliyin abidələri deyil. Onlar birgəyaşayışın canlı ənənəsinin bir hissəsidir. Bu tarixi ənənə dini azadlığa hörmət, mədəni və dini irsin qorunması, həmçinin dinlərarası dialoqun dəstəklənməsinə əsaslanan ardıcıl dövlət siyasəti vasitəsilə qorunub saxlanılıb və möhkəmləndirilib".

Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının İslam işləri üzrə bürosunun rəhbəri Ata Loran Basanez Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakadın müraciətini qonaqlara oxuyub. Müraciətdə kardinal "Harmoniya" sənədli filminin multikulturalizm və qarşılıqlı hörmətlə səciyyələnən kontekst daxilində Azərbaycanda müxtəlif dini ənənələrin nümayəndələri arasında birgəyaşayış təcrübəsini təqdim etdiyini bildirir. Qeyd olunub ki, filmin elə adı da bizə vacib bir məqamı xatırladır: "harmoniya fərqliliklərimizi silməyi tələb etmir, əksinə, o, bizi bu fərqlilikləri hörmət, dialoq və qardaşlıq ruhunda yaşamağı öyrənməyə səsləyir".

Müraciətdə həmçinin deyilir: "Dinlərarası dialoq yalnız bəyanatlar və ya rəsmi görüşlər səviyyəsində qala bilməz. O, eyni zamanda münasibətlərdə, təhsildə, mədəniyyətdə və müxtəlif inanclara mənsub insanların yan-yana yaşamaq tərzində əksini tapır. İncəsənət və kino bu baxımdan xüsusi töhfə verə bilər. Onlar birgəyaşayış haqqında nitqlərdən kənara çıxmağa, dini kimlikləri bir-biri ilə görüşməyə, hörmət etməyə və cəmiyyətə birgə töhfə verməyə mane olmayan insanların üzlərini görməyə, səslərini eşitməyə və konkret təcrübələrini kəşf etməyə imkan yaradır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov qeyd edib ki, əsrlər boyu Şərqlə Qərbin qovşağında yerləşən Azərbaycan xalqı multikulturalizm, qarşılıqlı hörmət və dinc yanaşı yaşamaq mədəniyyətini təbii olaraq formalaşdırmış və bunu nəsildən-nəslə ötürmüşdür. O, bu gün Azərbaycanın hər yerində müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşayıb-yaratdığını bildirib.

Komitə sədri "Harmoniya" sənədli filminin Azərbaycan torpağından bütün bəşəriyyətə göndərilən mühüm mənəvi mesaj olduğunu vurğulayaraq deyib: "Ölkəmizin müxtəlif müqəddəs ziyarətgahlarında və bölgələrində çəkilmiş film müxtəlif dinlərə mənsub üç qadının gündəlik həyatı, ailə dəyərləri və sarsılmaz dostluğu vasitəsilə Azərbaycanın həqiqi reallığını əks etdirir".

Qeyd edək ki, ekran əsəri beynəlxalq festivallarda və müxtəlif kino platformalarında da təqdim olunur.

Sonra "Harmoniya" filmi nümayiş etdirilib.

# Leyla Əliyeva Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti ilə görüşüb



**Sentyabrın 29-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, görüşdə Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələrə görə təşəkkür ifadə olunub, göstərilən uzunmüddətli dəstək yüksək qiymətləndirilib. Xüsusilə uşaq pediatriyası sahəsində Müqəddəs Taxt-Tacın "Bambino Gesu" xəstəxanası ilə qurulan əməkdaşlığın əhəmiyyəti qeyd edilib.

Eyni zamanda Müqəddəs Pavel Bazilikasının və oradakı abidələrin bərpası, həmçinin bu istiqamətdə gələcək fəaliyyətin genişləndirilməsi məsələləri müzakirə olunub.

Rahibə Raffaella Petrini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya salamlarını çatdırmağı xahiş edib. O, yaxın vaxtlarda Azərbaycana səfər etmək arzusunda olduğunu bildirib.

# Leyla Əliyeva Müqəddəs Taxt-Tacda Azərbaycan xalçaları sərgisinin açılışında iştirak edib





**Sentyabrın 29-da Müqəddəs Taxt-Tacda "Səmavi dinlər" layihəsi çərçivəsində iudaizm, xristianlıq və islam dinlərinə həsr olunmuş Azərbaycan xalçaları sərgisinin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Alyona Əliyeva iştirak ediblər.

Açılış mərasimində çıxış edən Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini mədəniyyətin və yaddaşın sülhün əsas sütunları olduğunu bildirərək deyib: "Sərgi müxtəlif dinlər, xalqlar, mədəniyyətlər, dillər və ənənələr arasında dialoq üçün imkan yaratmaq məqsədi daşıyır. Bu həm də xalçaçılıq sənətinin köklərinin ölkənin ənənələrinə dərindən bağlı olduğu Azərbaycana bir ehtiramdır. Bu gün burada sərgilənən xalçalar çox bacarıqlı sənətkarlar tərəfindən yaradılmış dəyərli nümunələr olmaqla yanaşı, həm də kimliyin və bəşəriliyin təcəssümüdür".

Raffaella Petrini eksponatların həm də dinlərarası dialoq dəyərinin səfirləri olduğunu diqqətə çatdıraraq, sərginin bu cür danışıqlar üçün konkret imkan yaratmaqla yanaşı, Azərbaycan ilə Vatikan arasındakı əlaqələrin mükəmməl ikitərəfli xarakterinin növbəti təsdiqi olduğunu bildirib.

Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov ölkəmizin zəngin mədəni irsində xalçanın həmişə Şərqlə Qərbi birləşdirən amil olduğunu deyərək, ölkəmizin əsrlər boyu tarixi İpək yolunun mühüm tərkib hissəsi olduğunu, regionun ipək istehsalı və xalçaçılıq üzrə əsas mərkəzlərindən birinə çevrildiyini diqqətə çatdırıb.

Bu gün təqdim olunan üç xalçanın bəşəri dəyərlərə həsr olunmuş unikal bədii triptix olduğunu deyən səfir qeyd edib: "Səkkizillik iş prosesində hər üç dinin ənənələrinə tam hörmətlə yanaşılmaqla inanc, dialoq və dözümlülük arasında bədii sintezə nail olunub. Ölkəmizdə Azərbaycan xalqının azad ruhu yalnız dözümlülükdə deyil, həm də ibadət evlərinə və müqəddəs irsə həqiqi hörmətdə özünü göstərir. Bu ruh Azərbaycanda bütün dünyada nümayiş etdirilən dinclik şəraitində birgəyaşayışın özünəməxsus nümunəsini formalaşdırıb. Bu mənada bu gün təqdim olunan xalçalar son dərəcə dəyərli sənət əsərləridir".

Vatikan muzeylərinin direktoru xanım Barbara Yatta Romanın həmişə gözəlliyi və ideyaları bölüşmək üçün körpülər saldığını qeyd edərək deyib: "Bu möhtəşəm xalçalar Vatikan muzeylərinin ən mötəbər bölmələrindən birində - "Anima Mundi" Muzeyində nümayiş olunur. Bildiyiniz kimi, "Anima Mundi" "dünyanın ruhu" deməkdir və biz son 10 ildə muzeyin bu hissəsini belə adlandırmağa qərar vermişik. Muzeyin bu hissəsi ən xüsusi guşələrdən biridir. Yenidən qurulan bu məkanda dünyanın dörd qitəsi təmsil olunur: Avstraliya, Afrika, Amerika və Asiya. Heydər Əliyev Fondu ilə birlikdə məqsədimiz bunları bir araya gətirməkdir. Hər gün muzeyə gələn minlərlə ziyarətçi müxtəlif mədəniyyətləri və inancları birləşdirən bu əsərləri görmək imkanına malik olur".

Milli Xalça Muzeyinin direktoru Əminə Məlikova bu əsərin Azərbaycanda xalçaçılıq sənətində yeni bir eranın başlanğıcı olduğunu qeyd edib və ilk dəfə olaraq 28 qadının səkkiz il ərzində "Səmavi dinlər" ideyasını həyata keçirdiyini deyib.

Onun sözlərinə görə, Azərbaycan həmişə sülhün və müxtəlif dinlərin nümayəndələrinin birlikdə yaşaya bildikləri məkan olub. "Bizim üçün xalça sənətkarlıqdan, ənənəvi incəsənətdən daha üstün bir dəyərdir. Biz bilirik ki, hər bir ənənəvi incəsənət hansısa xalqın ruhunu nümayiş etdirir. Beləliklə, bu gün bu üç xalçada Azərbaycanın və onun xalqının ruhunu görmək mümkündür", - deyə Ə.Məlikova əlavə edib.

Sonra qonaqlar sərgiyə baxıblar.

Qeyd edək ki, sənət əsəri iudaizm, xristianlıq və islam dinlərinə həsr edilib, dərin fəlsəfi düşüncənin, milli sənətkarlıq ruhunun təcəssümüdür. Hər üç xalça özündə fərqli dinləri və mədəniyyətləri simvollaşdırır, lakin bir araya gələndə insanlığın ortaq dəyərlərini - sülhü, mərhəməti və ədaləti ifadə edir. Layihə Azərbaycan mədəniyyətinin dərinliyindən gələn universal dəyərlərin, mədəni diplomatiya strategiyasının təcəssümüdür.

# Romada Leyla Əliyeva ilə Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyanın katibinin görüşü olub

**Sentyabrın 29-da Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyanın katibi Raffaella Culiani ilə görüş keçirib.**



AZƏRTAC xəbər verir ki, Raffaella Culiani görüşdə Azərbaycan nümayəndə heyətinin də iştirakını böyük sevinc hissi ilə qarşıladıqlarını qeyd edib. O, birgə tərəfdaşlığın simvolu kimi ərsəyə gələn "Mədəniyyətlər körpüsü" ("Pontes Culturae") kitabı barədə danışaraq deyib ki, bu əməkdaşlığın təməli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyeva və kardinal Canfranko Ravazi tərəfindən qoyulub. Bu dostluq münasibətlərinin gələcəkdə də davam edəcəyinə ümidvarlığını bildirən Raffaella Culiani Birinci vitse-prezident Mehriban Əliyevanın işlərlə həmişə yaxından maraqlandığını xatırladıb. Görüşdə katakombaların bərpası və digər yeni restavrasiya layihələri üzərində işin davam etdirilməsi imkanlarına toxunulub. Bu proseslərə gələcəkdə daha çox tələbənin və mütəxəssisin cəlb olunmasının nəzərdə tutulduğu, eyni zamanda Azərbaycanda yerləşən müxtəlif kilsələrdə peşəkar mütəxəssislərin çalışmasının arzuedilən olduğu bildirilib.

Müsəlman ölkəsi olan Azərbaycanın xristian irsinin bərpasındakı rolu yüksək qiymətləndirilib. Vurğulanıb ki, bu əməkdaşlıq və xüsusilə katakombaların bərpası sahəsində birgə fəaliyyət bütün dünya üçün mühüm mesajdır. Bu addım tolerantlığın, sülhün və mədəniyyətlərarası dialoqun bariz nümunəsidir.

# Azərbaycanla Müqəddəs Taxt-Tac arasında gələcək birgə proqramlarla bağlı fikir mübadiləsi aparılıb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sentyabrın 29-da Müqəddəs Taxt-Tacın Dinlərarası Dialoq üzrə Dikasteriyasının prefekti kardinal Corc Ceykob Kuvakad ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, görüşdə kardinal Corc Ceykob Kuvakad Azərbaycana səfərini və ona göstərilən qonaqpərvərliyi məmnunluqla xatırlayıb. O, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildiyini bildirib, səfər zamanı keçirdiyi görüşlərin xüsusi əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb. Kardinal vurğulayıb ki, dünyada müharibə, zorakılıq və nifrət mesajlarının yayıldığı bir dövrdə Azərbaycandakı dinlərarası həmrəylik və sülh modeli bütün beynəlxalq ictimaiyyət üçün böyük mesajdır.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva dünyada cərəyan edən mürəkkəb proseslər fonunda tərəflərin bir-birinə dəstək olmasının, səylərin birləşdirilməsinin, mədəniyyət, din, həmçinin insani dəyərlər ətrafında müzakirələrin genişləndirilməsinin vacibliyini vurğulayıb. Görüşdə Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələr, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə imzalanmış Anlaşma Memorandumu çərçivəsində gələcək birgə proqramlar ətrafında fikir mübadiləsi aparılıb.

# “Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!”



**2020-ci il sentyabrın 27-si Azərbaycan xalqının yaddaşına təkcə müharibənin başlandığı tarix kimi deyil, həm də illərlə ürəklərdə yaşadılan Qarabağ həsrətinin böyük bir ümidə çevrildiyi gün kimi həkk olundu. Həmin səhər cəbhədən gələn xəbərlər milyonlarla insanın diqqətini eyni istiqamətə yönəltdi. Yaşından, peşəsindən, yaşadığı məkandan asılı olmayaraq, hər kəsin düşüncəsində bir arzu vardı: işğal altında qalan torpaqlarımız azad edilsin, doğma yurdlarından didərgin düşmüş insanlar öz evlərinə qayıtsınlar. Otuz ilə yaxın davam edən ayrılığın sona çatacağına inam xalqı bir amal ətrafında birləşdirmişdi. Ön cəbhədə Azərbaycan əsgəri döyüşür, arxa cəbhədə isə bütün ölkə onun qələbəsi üçün səfərbər olurdu. Hər evdən yüksələn dualar, əsgərlərə göndərilən məktublar, göstərilən mənəvi dəstək xalqın həmrəyliyinin ifadəsinə çevrilmişdi.**

Bu gün həmin tarixi hadisələrdən altı il ötür. Zaman keçdikcə Vətən müharibəsinin yalnız hərbi-siyasi nəticələri deyil, xalqımızın mənəvi dünyasında yaratdığı dəyişikliklər də daha aydın görünür. O günlərdə dilə gətirilən arzuların bir çoxu artıq gerçəkliyə çevrilib. Bir vaxtlar yalnız xatirələrdə yaşayan şəhər və kəndlərimizdə həyat yenidən qurulur, doğma yurdlarına qayıdan insanların sevincinə şahidlik edirik. Lakin bu günün dəyərini anlamaq üçün müharibənin davam etdiyi günlərdə yaşanan hissləri, xalqın nümayiş etdirdiyi birliyi və qələbəyə olan inamı daim xatırlamaq vacibdir.

Müharibənin ilk günlərindən Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən əks-hücum əməliyyatları xalqın qələbə əzmini daha da gücləndirdi. Cəbhədən gələn hər bir uğurlu xəbər illərlə həsrətində olduğumuz torpaqlara qovuşmaq ümidini artırırdı. Həmin günlərdə Azərbaycan cəmiyyətində müşahidə olunan həmrəylik yalnız sözlə ifadə edilən birlik deyildi. İnsanlar imkanları daxilində orduya dəstək göstərir, şəhid ailələrinin, hərbi qulluqçuların yaxınlarının yanında olmağa çalışırdılar. Xaricdə yaşayan soydaşlarımız da Azərbaycanın mövqeyinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində fəallıq nümayiş etdirirdilər. Müharibənin gedişində xalqın iradəsi ilə ordunun mübarizəsi bir-birini tamamlayan gücə çevrilmişdi.

Bu tarixi günlərin mənəvi ruhunu əks etdirən müraciətlərdən biri də Birinci vitse-prezident Mehriban Əliyevanın 2020-ci il sentyabrın 29-da rəsmi "Instagram" səhifəsində etdiyi paylaşım idi. Müharibənin üçüncü gününə təsadüf edən həmin müraciətdə Azərbaycanın öz ərazi bütövlüyünü müdafiə etməsi, ordumuzun apardığı mübarizə, xalqın birliyi və əsgərlərimizin salamatlığı üçün edilən dualar xüsusi yer tuturdu. Birinci vitse-prezident yazırdı: "Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!"

Həmin müraciətin məzmununda mühüm məqamlardan biri hərbi əməliyyatların davam etdiyi bir vaxtda xalqın mənəvi birliyinə verilən dəyər idi. Döyüş meydanında hər gün yeni xəbərlərin gəldiyi, əsgər və zabitlərimizin taleyinin milyonlarla insanı düşündürdüyü həmin günlərdə qələbə arzusu həm də böyük bir duaya çevrilmişdi. Mehriban xanım Əliyevanın müraciətində səslənən fikirlər bu ümumi hissləri özündə birləşdirirdi: "Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!" Müraciətin davamında yer alan arzu isə həmin günlərdə bütün azərbaycanlıların qəlbindən keçən ən böyük diləklərdən birini ifadə edirdi: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin! Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!"

Otuz ilə yaxın yurd həsrəti ilə yaşayan insanlar üçün doğma torpağa ayaq basmaq, ata-baba ocağını yenidən görmək, əzizlərinin məzarlarını ziyarət etmək ən ülvi arzular sırasında dayanırdı. Müharibənin ilk günlərində edilən həmin dua bu baxımdan yalnız bir müraciətin ifadəsi deyil, bütöv bir xalqın illərlə qəlbində yaşatdığı istəyin təcəssümü kimi yadda qaldı.

Azərbaycan Ordusunun 44 gün davam edən hərbi əməliyyatları nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri, eləcə də yüzlərlə yaşayış məntəqəsi işğaldan azad edildi. Noyabrın 8-də Şuşanın azad olunması müharibənin gedişində dönüş nöqtələrindən birinə çevrildi. 2020-ci ilin sentyabrında böyük ümidlə başlanan mübarizə ölkəmizin ərazi bütövlüyünün bərpası ilə nəticələndi. Lakin bu tarixi nəticənin arxasında əvəzsiz itkilər dayanırdı. Qarabağın azadlığı uğrunda döyüşən minlərlə igid şəhidlik zirvəsinə ucaldı. Onların hər biri bir ailənin övladı, bir ananın ümidi, bir atanın qüruru, bir övladın dayağı idi.

2023-cü ilin sentyabrında Qarabağda həyata keçirilən lokal antiterror tədbirlərinin nəticəsində Azərbaycanın bütün ərazisi üzərində dövlət suverenliyi tam bərpa olundu. Həmin il oktyabrın 15-də Prezident İlham Əliyev Xankəndi, Xocalı, Xocavənd və Ağdərədə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Bu hadisələr Vətən müharibəsi ilə başlanan tarixi prosesin növbəti mühüm mərhələsi oldu.

Bu gün isə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri illər əvvəl dilə gətirilən arzulara yeni məzmun qazandırır. Bir zamanlar yalnız xatirələrdə yaşayan ünvanlarda yeni yaşayış məhəllələri salınır, yollar çəkilir, sosial obyektlər tikilir. Ağdamda, Laçında, Füzulidə, Şuşada, Kəlbəcərdə və digər yaşayış məntəqələrində həyata keçirilən qayıdış prosesi keçmiş məcburi köçkünlərin həyatında yeni səhifə açır. Doğma torpağına qovuşan insanların sevincində həm də otuz ilə yaxın davam edən ayrılığın ağrısı duyulur.

Altı il əvvəl Mehriban Əliyevanın etdiyi duanın mənası bu gün daha dərindən hiss olunur. O zaman Qarabağ torpağını öpmək bir arzu idisə, indi həmin torpaqlara qayıdan insanlar üçün yaşanan gerçəklikdir. Vaxtilə evlərinin açarını illərlə qoruyub saxlayan, övladlarına heç görmədikləri kəndlərin, şəhərlərin ünvanlarını öyrədən insanların bir qismi artıq öz doğma yurdlarında yeni həyata başlayıblar. Bu qayıdış təkcə insanların bir yaşayış yerindən digərinə köçməsi deyil, illərlə qırılmış həyat bağlarının yenidən bərpası, nəsillər arasında mənəvi əlaqənin davam etdirilməsidir.

Vətən müharibəsinin altıncı ildönümü həm də xalqımızın 2020-ci ilin payızında nümayiş etdirdiyi birliyi xatırlamaq üçün mühüm tarixdir. Həmin 44 gündə milyonlarla insanın diqqəti eyni xəbərlərə yönəlmiş, sevinci də, kədəri də ortaq olmuşdu. Qələbəyə aparan yol xalqın iradəsi, ordunun fədakarlığı və Vətən sevgisi ilə müşayiət edilmişdi. Bu gün həmin birliyin mənəvi mirasını qorumaq, şəhid ailələrinə diqqəti davam etdirmək, müharibənin tarixi həqiqətlərini gələcək nəsillərə çatdırmaq xüsusi əhəmiyyət daşıyır.

İndi Qarabağın azad edilmiş şəhər və kəndlərində dalğalanan üçrəngli bayrağımız, doğma yurduna qayıdan insanların sevinci, yenidən qurulan həyat altı il əvvəl edilən duaların necə böyük məna daşıdığını xatırladır. O günlərdə xalqımızın ən böyük diləyi torpaqlarımızın azadlığı, əsgərlərimizin sağ-salamat qayıtması və əzəli yurd yerlərimizə dönüş ilə bağlı idi. Bir zamanlar həsrətlə dillənən Qarabağ arzusu indi gerçəkləşən qayıdışın, əbədi minnətdarlığın və şəhidlərimizə verilən sədaqət sözünün ifadəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Azərbaycan Parlamenti: *milli inkişafın hüquqi təminatçısı və dövlətçilik ənənələrinin daşıyıcısı*

**Müasir dövrdə dövlətlərin gücü yalnız iqtisadi potensialı, hərbi qüdrəti və ya təbii sərvətləri ilə deyil, eyni zamanda onların siyasi institutlarının səmərəliliyi, idarəetmə mexanizmlərinin dayanıqlılığı və hüquqi sistemlərinin mükəmməlliyi ilə ölçülür. Bu baxımdan parlamentlər demokratik idarəetmənin əsas sütunlarından biri olmaqla yanaşı, dövlət siyasətinin formalaşdırılması, milli maraqların müdafiəsi və vətəndaş cəmiyyətinin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycan Respublikasının Milli Məclisi də müstəqillik illərində keçdiyi inkişaf yolu ilə ölkəmizin siyasi həyatında aparıcı mövqe tutan, dövlət quruculuğu proseslərinin ayrılmaz tərkib hissəsinə çevrilən ali qanunverici orqan kimi özünü təsdiqləmişdir.**

## Zəngin dövlətçilik irsi və müasir parlamentarizmin təşəkkülü

Azərbaycan xalqının dövlətçilik tarixi zəngin ənənələrə malikdir. Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti milli parlamentarizm tariximizin əsasını qoymuşdur. Həmin dövrdə yaradılmış parlament müxtəlif siyasi baxışları təmsil edən qüvvələri özündə birləşdirərək milli maraqlar ətrafında fəaliyyət göstərmiş, qısa müddət ərzində dövlət quruculuğu istiqamətində mühüm qərarlar qəbul etmişdir. Bu ənənələr sonrakı dövrlərdə müxtəlif tarixi mərhələlərdən keçsə də, müstəqilliyin bərpasından sonra yeni məzmun və keyfiyyət qazanmışdır.

Müstəqilliyin ilk illərində Azərbaycan mürəkkəb geosiyasi vəziyyət, iqtisadi böhran, daxili siyasi qarşıdurmalar və Ermənistanın hərbi təcavüzü ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə dövlət institutlarının formalaşdırılması, hüquqi bazanın yaradılması və siyasi sabitliyin təmin olunması həyati əhəmiyyət daşıyırdı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə sabitliyin bərpa olunması ilə yanaşı, müasir parlamentçilik institutunun inkişafı üçün də möhkəm təməl yaradıldı. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası qanunvericilik hakimiyyətinin fəaliyyət prinsiplərini müəyyənləşdirdi və Milli Məclisin dövlət idarəçiliyindəki rolunu daha da gücləndirdi.

Ötən illər ərzində Milli Məclis dövlət müstəqilliyinin möhkəmləndirilməsi, bazar iqtisadiyyatına keçid, sahibkarlığın inkişafı, xarici investisiyaların cəlb olunması, insan hüquq və azadlıqlarının müdafiəsi, sosial təminat sisteminin qurulması və demokratik institutların inkişafı istiqamətində yüzlərlə mühüm qanun və normativ-hüquqi akt qəbul etmişdir. Məhz bu qanunvericilik bazası Azərbaycanın sonrakı inkişaf mərhələlərinin hüquqi dayağına çevrilmişdir.

## Müstəqil dövlətçilik konsepsiyası və tarixi zəfərlər dövrü

Azərbaycan Respublikasının müasir siyasi və dövlətçilik tarixi keyfiyyətcə tamamilə yeni, şərəfli və möhtəşəm bir mərhələsini yaşamaqdadır. Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu müstəqil dövlət quruculuğu xətti bu gün Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən, qətiyyətli və milli maraqlara söykənən sarsılmaz siyasəti sayəsində özünün ən qüdrətli, ən yüksək zirvəsinə çatmışdır. 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfər və 2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi ölkəmizin həyatında tamamilə yeni bir eranın başlanğıcını qoydu. Bu Zəfər təkcə hərbi-diplomatik uğur deyil, əsrlər boyu formalaşan dövlətçilik təfəkkürünün, milli həmrəyliyin və sarsılmaz xalq-iqtidar birliyinin məntiqi nəticəsidir.

Qalib Azərbaycan bu gün təkcə Cənubi Qafqazda deyil, daha geniş coğrafiyada yeni strateji reallıqlar diktə edən, qlobal layihələrin təşəbbüskarı və təminatçısı kimi çıxış edən qüdrətli bir dövlətdir. Ölkə rəhbərinin nümayiş etdirdiyi dəmir iradə, siyasi uzaqgörənlik və prinsipiallıq Azərbaycanın beynəlxalq müstəvidəki mövqelərini sarsılmaz etmişdir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, yeni tarixi dövr qarşıya yeni hədəflər, daha çevik idarəetmə mexanizmləri və bütün dövlət institutlarının yüksək effektivliklə çalışmasını qoyur. Bu nəhəng və məsuliyyətli prosesdə dövlət idarəçiliyi sisteminin mühüm sütunlarından biri olan Azərbaycan Respublikasının Milli Məclisi müstəsna rol oynayır.

Müasir Azərbaycan Parlamenti təkcə qanunvericilik aktlarını qəbul edən mexanizm deyil, həm də ölkə başçısının həyata keçirdiyi böyük islahatlar kursunun hüquqi təməlini möhkəmləndirən, xalq iradəsini və milli maraqları beynəlxalq müstəvidə cəsarətlə müdafiə edən dövlətçilik institutudur. Parlamentin hər bir qərarı, qəbul etdiyi hər bir qanun dövlətimizin milli təhlükəsizliyinə, sosial-iqtisadi tərəqqisinə və gələcək nəsillərin rifahına xidmət edir.



## Qanunvericilik islahatları və Böyük qayıdışın hüquqi bazası

Tarixi Zəfərdən sonra yaranmış yeni reallıqlar qanunverici hakimiyyət qarşısında da strateji tələblər müəyyənləşdirmişdir. Qanun yaradıcılığı prosesi ölkənin ümumi inkişaf dinamikasına uyğun olaraq daha çevik, əhatəli və nəticəyönümlü xarakter almışdır. Dövlətimizin iqtisadi, hərbi və sosial potensialının artırılması, azad olunmuş torpaqlarımızda "Böyük qayıdış" proqramının sürətləndirilməsi istiqamətində qəbul edilən qanunlar birbaşa milli təhlükəsizliyimizin hüquqi təminatına çevrilir.

Milli Məclisdə təmsil olunan deputat korpusu öz fəaliyyətini məhz bu ali prinsiplərə uyğun quraraq, Prezident İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf modelinin qanunvericilik müstəvisində tam, operativ və keyfiyyətli şəkildə əks olunmasını təmin edir. Ölkədə həyata keçirilən sosial-iqtisadi, siyasi və məhkəmə-hüquq islahatlarının hüquqi bazası mütəmadi olaraq təkmilləşdirilir, cəmiyyətdə siyasi dialoq mühiti daha da dərinləşdirilir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, sosial rifahın yüksəldilməsi və ordumuzun müdafiə qüdrətinin daha da artırılması istiqamətində qəbul edilən hər bir qanun, əslində, dövlətimizin gələcək inkişaf xəritəsini cızır. Parlamentsiz hüquqi dövlət, hüquqi bazasız isə sürətli inkişaf mümkün deyildir. Məhz bu məntiqdən çıxış edərək, Milli Məclis dövlət başçısının daxili və xarici siyasətini qətiyyətlə dəstəkləyir, müxtəlif sahələr üzrə qanunvericilik aktlarının hazırlanmasında bilavasitə vətəndaş cəmiyyətinin, mütəxəssislərin və seçicilərin rəyini nəzərə alaraq xalq-dövlət birliyinin möhkəmlənməsinə xidmət edir.

Sosial dövlət prinsiplərinə sadiq qalan Azərbaycan dövləti müharibədən sonrakı dövrdə şəhid ailələrinin, qazilərin və müharibə iştirakçılarının sosial müdafiəsini ön plana çəkmişdir. Parlament bu istiqamətdə ardıcıl qanunvericilik təşəbbüsləri ilə çıxış edərək, sosial paketlərin genişləndirilməsinə, güzəşt və imtiyazların hüquqi mexanizmlərinin təkmilləşdirilməsinə öz sanballı töhfəsini vermişdir. Bu, dövlətin öz vətəndaşına olan qayğısının qanunvericilik müstəvisindəki bariz təzahürüdür.

## İnstitusional inkişaf və dövlətçilik prinsipləri

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar Azərbaycanın qarşısında yeni inkişaf hədəfləri müəyyən etmişdir. Qarşıdakı dövrdə iqtisadiyyatın şaxələndirilməsi, "yaşıl enerji" keçidi, rəqəmsal iqtisadiyyatın inkişafı, insan kapitalının gücləndirilməsi və innovativ texnologiyaların tətbiqi əsas prioritetlər sırasındadır. Bu hədəflərin reallaşdırılması isə yeni qanunvericilik təşəbbüsləri, çevik hüquqi mexanizmlər və müasir idarəetmə yanaşmaları tələb edir. Milli Məclis məhz bu strateji məqsədlərin həyata keçirilməsində əsas hüquqi təminatçı rolunu oynayır.

Parlamentin fəaliyyətində əsas meyar dövlətçilik maraqlarının hər şeydən üstün tutulması, ali qanunvericilik orqanının nüfuzunun qorunması və cəmiyyətdə sağlam siyasi mədəniyyətin formalaşdırılmasıdır. Milli Məclisdə nümayiş etdirilən yüksək peşəkarlıq, qanun layihələrinin müzakirəsi zamanı konstruktiv mühitin təmin olunması və parlament strukturlarının koordinasiyalı işi parlamentin səmərəliliyini qat-qat artırmışdır.

Eyni zamanda Milli Məclisdə qanunvericilik prosesinin rəqəmsallaşdırılması, iş prinsipində şəffaflığın artırılması və analitik bazanın gücləndirilməsi istiqamətində vacib addımlar atılmışdır. Bu institusional yeniliklər parlamentin qərarlarının daha əsaslandırılmış və əhatəli olmasına şərait yaradır.

## Siyasi etika və sarsılmaz dövlətçilik mövqeyi

Azərbaycanın qazandığı tarixi zəfərlər və dövlətimizin artan nüfuzu cəmiyyətimizdə sarsılmaz bir milli həmrəylik mühiti formalaşdırmışdır. Bu gün Milli Məclisdə müxtəlif siyasi partiyaların nümayəndələrinin təmsil olunması, konstruktiv müzakirələrin aparılması ölkəmizdəki siyasi dialoq mühitinin dərinliyini göstərir. Dövlət maraqları söz mövzusu olduqda bütün siyasi qüvvələrin vahid mövqedən çıxış etməsi müasir Azərbaycan parlamentarizminin ən böyük nailiyyətlərindən biridir.

Bu gün Milli Məclisin dövlətçiliyə xidmət edən prinsipial xəttini həzm edə bilməyən bəzi siyasi dairələrin əsassız mülahizələrlə çıxış etməsi təəssüf doğurur. Ayrı-ayrı fərdi şəxslərin qərəzli yozumlar aparması və uydurma kənar təsir iddiaları irəli sürməsi heç bir siyasi etikaya və sağlam düşüncəyə sığmır. Bu cür üstüörtülü manipulyasiyalar və subyektiv yanaşmalar real faktlara əsaslanmayaraq, sadəcə diqqət cəlb etməyə hesablanmış uğursuz cəhdlərdir. Belə əsassız mülahizələr cəmiyyətimiz və deputatlar tərəfindən hər zaman olduğu kimi, bu gün də qətiyyətlə rədd edilir və sağlam siyasi şüur müstəvisində öz layiq olduğu qiyməti alır.

Azərbaycanın ali qanunverici orqanının və onun rəhbərliyinin fəaliyyəti yalnız Azərbaycan xalqının iradəsinə, Konstitusiyaya və ölkə rəhbəri cənab İlham Əliyevin həyata keçirdiyi müstəqil dövlət siyasətinə söykənir. Hər kəs anlamalıdır ki, Milli Məclis hər zaman olduğu kimi, bu gün də dövlətin və xalqın maraqlarının etibarlı müdafiəçisidir. Heç bir qərəzli iddia parlamenti dövlətçiliyə xidmət yolundan çəkindirə bilməz. Milli Məclis ölkə rəhbərinin ətrafında sıx birləşərək, Azərbaycanın inkişafı, təhlükəsizliyi və tərəqqisi naminə öz missiyasını bundan sonra da qətiyyətlə davam etdirəcəkdir.

## Parlament diplomatiyası: qlobal platformalarda milli maraqların müdafiəsi

Müasir çağırışlar fonunda parlament diplomatiyası rəsmi xarici siyasətin tamamlayıcısı və ən təsirli alətlərindən biri kimi çıxış edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyənləşdirdiyi xarici siyasət kursuna uyğun olaraq, Milli Məclis beynəlxalq əlaqələrini keyfiyyətcə yeni müstəviyə qaldırmışdır.

Beynəlxalq parlamentlərarası təşkilatlarda, ikitərəfli və çoxtərəfli görüşlərdə ölkəmizin mövqeyinin cəsarətlə müdafiə olunması, Vətən müharibəsindən sonrakı reallıqların dünya birliyinə çatdırılması parlament diplomatiyasının mühüm tərkib hissəsidir. Deputatlarımızın beynəlxalq qurumlardakı prinsipial çıxışları, ikitərəfli dostluq qruplarının aktiv fəaliyyəti Azərbaycan əleyhinə yönəlmiş qərəzli kampaniyalara layiqli cavab verilməsini təmin edir.

Parlamentlərarası əməkdaşlıq arealının genişlənməsi, xüsusilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi kimi qlobal platformaların təsis edilməsi və səmərəli fəaliyyət göstərməsi Azərbaycanın beynəlxalq nüfuzunun artmasında müstəsna rol oynayır. Həyata keçirilən bu ardıcıl və məqsədyönlü xarici siyasət xətti milli maraqlarımızın ən ali kürsülərdən qorunmasını və ikitərəfli dostluq münasibətlərinin keyfiyyətcə yeni müstəviyə qaldırılmasını şərtləndirmişdir.

Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının və Xocalı soyqırımı kimi həssas mövzuların xarici auditoriyalarda mütəmadi olaraq gündəmə gətirilməsi, tarixi həqiqətlərin dünya ictimaiyyətinə faktlarla izah olunması ali qanunverici orqanın milli vətənpərvərlik ruhunda fəaliyyətinin aydın göstəricisidir.

## Xalqla sıx birlik, hesabatlılıq və seçicilərlə iş

Milli Məclisin fəaliyyəti təkcə parlament binasının iclas zalları ilə məhdudlaşmır. Müasir parlamentin əsas xüsusiyyətlərindən biri də cəmiyyətlə sıx əlaqələrin qurulmasıdır. Parlamentlə vətəndaşlar arasında qarşılıqlı etimad münasibətlərinin möhkəmləndirilməsi demokratik idarəetmənin vacib elementidir. Bu baxımdan Milli Məclis xalqın səsini dövlət idarəçiliyinə daşıyan mühüm platforma rolunu oynayır. Deputat fəaliyyətinin əsas meyarlarından biri də seçicilərlə daim əlaqə saxlanılması, yerlərdə vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılmasıdır.

Seçki dairələrində keçirilən müntəzəm görüşlər, vətəndaşların qəbulu və onların qaldırdığı sosial-məişət, hüquqi və iqtisadi məsələlərin operativ şəkildə aidiyyəti dövlət qurumları qarşısında qaldırılması parlamentin xalqla dövlət arasında necə etibarlı bir körpü rolunu oynadığını göstərir. Deputatlar seçicilərin istək və təkliflərini qanunvericilik təşəbbüslərində əks etdirərək, qanunların cəmiyyətin real ehtiyaclarına cavab verməsini təmin edirlər.

Parlament idarəçiliyində şəffaflığın, hesabatlılığın və vətəndaş məmnunluğunun artırılması istiqamətində atılan addımlar Milli Məclisin xalqın gerçək nümayəndəliyi funksiyasını tam yerinə yetirməsinə şərait yaradır. Bu qarşılıqlı etimad və sıx ünsiyyət ölkəmizdəki daxili sosial sabitliyin və milli birliyin daha da möhkəmlənməsinə xidmət edir.

## Gələcəyə baxış: qüdrətli Azərbaycan uğrunda sarsılmaz əzm

Yekun olaraq qeyd etmək olar ki, Azərbaycan Respublikasının Milli Məclisi bundan sonra da ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən möhtəşəm quruculuq, inkişaf və yüksəliş strategiyasına öz dəyərli töhfələrini verməkdə davam edəcəkdir.

Hüquqi dövlət quruculuğu prosesində ayıq-sayıq dayanan, milli maraqları hər şeydən üstün tutan müasir Azərbaycan parlamentarizmi müstəqil, qüdrətli və qalib dövlətimizin parlaq gələcəyinə etibarlı xidmət etmək əzmindədir. Heç bir uydurma iddia, ucuz siyasi gediş və ya qərəzli mülahizə Azərbaycan Parlamentini dövlətçilik xəttindən, xalqa və Prezidentə sədaqət yolundan döndərə bilməz. Milli Məclis dövlətimizin suverenliyinin, iqtisadi yüksəlişinin və milli birliyinin qanunvericilik qalasında sarsılmaz keşikçi kimi addımlamaqda davam edəcəkdir.

***Asif ƏSGƏROV,***
***Milli Məclisin deputatı***



**Beynəlxalq təhlükəsizlik sisteminin zəiflədiyi, dünyanın qeyri-müəyyən mərhələyə qədəm qoyduğu bir dövrdə dialoq və əməkdaşlıq imkanlarının açıq saxlanılması zərurətə çevrilib. Siyasi qarşıdurmaların, regional münaqişələrin və iqtisadi təlatümlərin kəskinləşdiyi mürəkkəb şəraitdə Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, prinsipial və çoxşaxəli xarici siyasət kursu sayəsində Azərbaycan beynəlxalq miqyasda etimadın, sülhün və çoxtərəfli əməkdaşlığın formalaşmasına önəmli töhfələr verməkdədir.**

# Əməkdaşlıq, dialoq və etimad ünvanı

## Azərbaycanda keçirilən mötəbər tədbirlər ölkəmizin qlobal nüfuzunun, aparıcı mövqeyinin və birləşdirici rolunun əyani təzahürüdür

Dünyanın bir çox ölkəsi, aparıcı beynəlxalq təşkilatlar, beyin mərkəzləri və transmilli şirkətlər Bakını açıq dialoq, strateji tərəfdaşlıq və ən etibarlı platforma kimi qəbul edirlər. Çünki Azərbaycan Şərqlə Qərbi, Şimalla Cənubu ideoloji və mədəni müstəvidə bir araya gətirmək bacarığına sahibdir.

Bu önəmli missiyanın məntiqi tərkib hissəsi kimi sentyabrın 25-26-da Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizin qlobal iqtisadi proseslərdə fəal iştirakını və sürətlə artan investisiya imkanlarını növbəti dəfə bütün dünyaya bariz şəkildə nümayiş etdirdi. "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusunda təşkil olunan mötəbər forum müasir dövrdə iqtisadi sabitliyin, qarşılıqlı etimadın və regional əməkdaşlığın bərpasının nə dərəcədə böyük əhəmiyyət kəsb etdiyini bir daha önə çıxardı. Tədbirdə iştirak edən və moderatorun suallarını ətraflı cavablandıran dövlətimizin başçısı vurğuladı ki, iqtisadiyyatın müxtəlif nəhəng və aparıcı sektorlarını təmsil edən bir çox beynəlxalq şirkətlərin Azərbaycanı etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş kimi qəbul etməsi faktı mövcud reallıqların təməlidir.

Prezident İlham Əliyevin proqram xarakterli çıxışı Azərbaycanın iqtisadi inkişaf modelinin əsas istiqamətlərini, ölkənin artan investisiya imkanlarını, Orta dəhliz çərçivəsində nəqliyyat potensialını, energetika siyasətini və Cənubi Qafqazda formalaşan yeni geoiqtisadi reallıqları tam əhatə edərək xarici tərəfdaşlara gələcək əməkdaşlığın aydın yol xəritəsini təqdim etdi. Ümumiyyətlə, bu forum Azərbaycanın yeni iqtisadi reallıqlar fonunda investisiya, "yaşıl enerji", nəqliyyat-logistika və digər perspektivli sahələr üzrə malik olduğu böyük potensialın beynəlxalq investorlar qarşısında təqdim edilməsi baxımından xüsusi əhəmiyyətli oldu.

Əlbəttə, ölkəmizin beynəlxalq münasibətlər sistemində qazandığı böyük etimad və nüfuz məqsədyönlü və uzaqgörənliklə həyata keçirilən təşəbbüslərin nəticəsidir. 12 mart 2026-cı il tarixində Bakıda təşkil olunan və "Keçid dövründə olan dünyada fikir ayrılıqlarının aradan qaldırılması" mövzusuna həsr edilən XIII Qlobal Bakı Forumu mürəkkəb siyasi proseslərin, dərinləşən qütbləşmələrin və risklərin müzakirə edildiyi ən nüfuzlu qlobal platformalardan biri kimi diqqət mərkəzində oldu. Dünyanın müxtəlif ölkələrindən tanınmış siyasətçiləri, sabiq dövlət və hökumət başçılarını, beynəlxalq təşkilat nümayəndələrini və aparıcı ekspertləri bir araya gətirən forumun açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev müasir dünyanın qarşılaşdığı geosiyasi çağırışlar, beynəlxalq əməkdaşlığın perspektivləri və yeni dünya nizamının formalaşması barədə mühüm mülahizələrini səsləndirdi. Dövlətimizin başçısının vurğuladığı kimi, beynəlxalq hüququn selektiv tətbiqi, əməkdaşlıq mexanizmlərinin zəifləməsi və dövlətlər arasında artan rəqabət etimad böhranını dərinləşdirir. Prezident İlham Əliyev xüsusi olaraq diqqətə çatdırdı ki, qlobal problemlər və fikir ayrılıqları yalnız açıq dialoq, qarşılıqlı hörmət və əməkdaşlıq yolu ilə həll edilə bilər. Məhz Azərbaycanın bu mövqeyi ölkəmizi qlobal miqyasda aparıcı təşəbbüskar mərkəzə çevirib.

Siyasi və iqtisadi dialoqla yanaşı, Azərbaycan qlobal təhlükəsizlik arxitekturasının yeniden formalaşdırılması, təhdidlərə qarşı mübarizə işinə də töhfələr verməkdədir. Beynəlxalq təhlükəsizlik sisteminin ciddi sınaqlarla üz-üzə qaldığı bir zamanda Dövlət Təhlükəsizliyi Xidmətinin təşkilatçılığı ilə Bakıda keçirilən IV Bakı Təhlükəsizlik Forumu öz miqyası və əhatə dairəsi ilə qlobal əhəmiyyətli hadisə kimi diqqəti cəlb etdi. Dünya ölkələrinin xüsusi xidmət və təhlükəsizlik orqanları üçün dialoq platformasına çevrilən bu foruma 600-ə yaxın nümayəndənin qatılması Bakı platformasına olan beynəlxalq etimadın ən yüksək səviyyədə olduğunu növbəti dəfə təsdiqlədi. Bu forum bir daha göstərdi ki, Azərbaycan qlobal təhlükəsizlik risklərinin qiymətləndirilməsində və birgə mübarizə mexanizmlərinin işlənməsində birləşdirici və əlaqələndirici rol oynayır.

Azərbaycanın evsahibliyi etdiyi beynəlxalq tədbirlər iqlim dəyişikliyi ilə mübarizədən tutmuş şəhərsalma, mədəniyyət, humanitar diplomatiya və mənəvi irsin qorunmasına qədər ən müxtəlif strateji sahələri əhatə edir. Qlobal iqlim diplomatiyasının zirvəsi sayılan COP29-dan sonra BMT-nin Ümumdünya Şəhərsalma Forumunun (WUF13) ölkəmizdə uğurlu təşkili, müntəzəm olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, Qoşulmama Hərəkatına sədrliyi dövründə təşkil edilən Zirvə görüşləri beynəlxalq ictimaiyyətin Azərbaycanın təşkilatçılıq qabiliyyətinə və vasitəçilik missiyasına verdiyi böyük qiymətin sübutudur. Bununla yanaşı, Bakıda keçirilən Türk Dövlətləri Təşkilatının Müsəlman Dini Rəhbərləri Şurasının 7-ci toplantısı və böyük Azərbaycan mütəfəkkiri Seyid Yəhya Bakuviyə həsr olunmuş beynəlxalq konfrans ölkəmizin öz tarixi-mənəvi irsinə sadiqliyi ilə yanaşı, türk dünyası və islam aləmində mənəvi həmrəyliyi yüksək səviyyədə təmin etdiyini də ortaya qoydu.

Bütün bu mühüm forumlar, beynəlxalq konfranslar, iqtisadi və təhlükəsizlik platformaları Azərbaycanın sadəcə qlobal tədbirlərə evsahibliyi edən coğrafi məkan olmadığını, eyni zamanda qlobal ideyaların müəllifi, sülhün, təhlükəsizliyin, iqtisadi bağlantıların və sivilizasiyalararası dialoqun fəal təşəbbüskarı olduğunu təsdiqləyir. Ziddiyyətlərin kəskinləşdiyi dövrdə tərəfdaşlıq üçün Bakının seçilməsi, fərqli siyasi qütblərin və nəhəng investorların ölkəmizdə bir araya gələrək əməkdaşlıq yollarını müzakirə etməsi Azərbaycan dövlətinin artan nüfuzunun, Prezident İlham Əliyevin beynəlxalq miqyasda qəbul olunan liderliyinin əyani göstəricisidir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Baş prokuror Rusiya Federasiyası Ali Məhkəməsinin sədri ilə görüşüb

**Sentyabrın 29-da Moskva şəhərində Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyevlə Rusiya Federasiyası Ali Məhkəməsinin sədri İqor Krasnov arasında görüş keçirilib.**



Görüşdə Azərbaycan və Rusiya arasında münasibətlərin inkişafında dövlət başçıları arasında formalaşmış dostluq və qarşılıqlı etimada əsaslanan münasibətlərin mühüm rolu qeyd olunub. Ölkələrimiz arasında əlaqələrin strateji tərəfdaşlıq və müttəfiqlik qarşılıqlı fəaliyyəti prinsipləri əsasında inkişaf etdiyi, müxtəlif sahələrdə faydalı əməkdaşlığın genişləndirilməsi üçün möhkəm zəminin mövcud olduğu vurğulanıb.

Baş prokuror iki ölkənin prokurorluq orqanları arasında uzun illər ərzində formalaşmış əlaqələrin yüksək səviyyədə olduğunu bildirərək, qarşılıqlı hüquqi yardım, cinayətkarlığa qarşı mübarizə, təcrübə və məlumat mübadiləsi istiqamətlərində səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edib.

Görüş zamanı Azərbaycan və Rusiya arasında hüquq sahəsində əlaqələrin gələcək inkişaf perspektivləri, institusional əməkdaşlığın daha da möhkəmləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsi, həmçinin hüquq təhsili və kadrların peşə hazırlığı sahəsində əməkdaşlıq imkanları müzakirə olunub. Bu xüsusda əlaqələrin genişləndirilməsi, birgə elmi-praktiki tədbirlərin, təlimlərin və təcrübə mübadiləsinin təşviqi ilə bağlı perspektivlər ətrafında fikir mübadiləsi aparılıb.

İqor Krasnov azərbaycanlı həmkarları ilə konstruktiv münasibətlərin, möhkəm, etimada əsaslanan və uzunmüddətli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu bildirərək, keçirilən görüşün iki ölkənin müvafiq qurumları arasında əlaqələrin daha da inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüş çərçivəsində baş prokuror Kamran Əliyev tərəfindən İqor Krasnova "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" medalı təqdim edilmişdir.

*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsi Plenumunun iclasında rayon məhkəməsinin müraciəti əsasında qərar qəbul edilib

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Şəki Rayon Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 61-ci və 71-ci maddələri, habelə hüquqi müəyyənlik prinsipi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 288.2-ci maddəsində nəzərdə tutulan "müdafiəçi" ifadəsinin mülki mühakimə icraatında iştirak edən vəkili də əhatə edib-etməməsi məsələsinə münasibətdə şərh olunmasına dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim X.Vəliyevin məruzəsini, maraqlı subyektlər Şəki Rayon Məhkəməsinin müraciətini, Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prokurorluğu, Sumqayıt Apellyasiya Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 61-ci və 71-ci maddələrinin, habelə hüquqi müəyyənlik prinsipinin tələbləri baxımından Cinayət Məcəllənin 288.2-ci maddəsində nəzərdə tutulan "müdafiəçi" ifadəsi Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada cinayət mühakimə icraatında şübhəli və ya təqsirləndirilən şəxsin müdafiəsini həyata keçirən, habelə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə hüquqi yardım göstərən vəkili ehtiva edir.

Hüquqi yardım göstərən digər vəkillərin, o cümlədən mülki mühakimə icraatında iştirak edən vəkilin peşə fəaliyyəti ilə əlaqədar hədə-qorxu və hüquqazidd təsirlərdən cinayət-hüquqi müdafiəsinə dair xüsusi təminatların müəyyən edilməsi istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilib.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# BMT tribunasından tarixi ədalət tələbi

**Nyu Yorkda Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində keçirilən "Qayıdış hüququ və dekolonizasiya: gecikmiş tarixi ədalətin bərpası" mövzusunda beynəlxalq konfrans növbəti dəfə göstərdi ki, müstəmləkəçilik yalnız keçmişdə qalmış tarixi fakt deyil, müasir dünyada da həllini gözləyən, hələ də tamamlanmamış siyasi öhdəlikdir.**




Bu gün XXI əsrdə yaşamağımıza baxmayaraq, dünyanın müxtəlif coğrafiyalarında, Yeni Kaledoniya, Korsika, Sent-Martin və Karib hövzəsinin digər ərazilərindən tutmuş Sakit okeandakı ərazilərədək milyonlarla insan neokolonializmin yaratdığı siyasi, iqtisadi və mədəni asılılıqdan əziyyət çəkir. Müstəmləkəçi sistemlər təkcə torpaqlar və resurslar üzərində nəzarətlə kifayətlənmir, eyni zamanda yerli xalqların dilini, kimliyini və tarixi yaddaşını sıxışdıraraq deqradasiyaya uğradır.

## Qlobal platforma

Məhz belə bir şəraitdə Bakı Təşəbbüs Qrupu (BTQ) müstəmləkəçiliklə mübarizədə və tarixi ədalətin bərpasında qlobal platforma rolunu öz üzərinə götürüb. Yarandığı qısa müddət ərzində BTQ müxtəlif müstəmləkə ərazilərinin yerli icma nümayəndələrinin bir araya gəlməsində mühüm rol oynayıb.

Kolonializm onun təsiri altında yaşayanlar üçün böyük ədalətsizlik olmaqla Bakı Təşəbbüs Qrupunun diqqət mərkəzinə daxil olan məsələdir. BTQ-nin konfrans müzakirələrində həm də müstəmləkəçiliyin bu ərazilərin mədəni, sosial və iqtisadi mənzərələrinə davamlı təsir məsələləri vurğulanır. Tarixi ədalətsizliklərin aradan qaldırılmasının aktuallığı, qlobal həmrəylik və hərtərəfli dekolonizasiya təşəbbüslərini dəstəkləmək üçün proaktiv tədbirlər müzakirə edilir.

BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində BTQ-nin təşkilatçılığı ilə keçirilən "Qayıdış hüququ və dekolonizasiya: gecikmiş tarixi ədalətin bərpası" mövzusunda beynəlxalq konfransda da məhz bu məsələlər geniş müzakirə olunub.

Konfransda Yeni Kaledoniya, Korsika, Sent-Martin və Karib hövzəsinin digər ərazilərindən nümayəndələr, Afrika mənşəli xalqların və Siqh icmasının təmsilçiləri, keçmiş hökumət rəsmiləri, siyasi və ictimai təşkilatların nümayəndələri, ekspertlər iştirak ediblər.

Korsikanın Luqo-di-Natsa kommunasının meri, "Nazione" müstəqillik hərəkatının üzvü Fransua Benedetti beynəlxalq konfrans çərçivəsində təşkil olunan "Dekolonizasiya və beynəlxalq hüquq kontekstində qayıdış hüququ" adlı panel müzakirəsində deyib ki, müxtəlif xalqların tarixi və siyasi şəraiti fərqli olsa da, onların azadlıq, ləyaqət, müstəqillik və suverenlik uğrunda mübarizəsində oxşar problemlər mövcuddur.

O bildirib ki, müstəmləkəçilik yalnız ərazi və siyasi nəzarətlə məhdudlaşmır, xalqın dili, mədəniyyəti və kimliyinə də təsir göstərir: "Mədəni kimliyin zəiflədilməsi ilk növbədə dilin sıxışdırılması ilə həyata keçirilirdi. Məqsəd xalqın dilinin və mədəniyyətinin tarixi dayaqlarını dəyişdirmək idi".

Sözügedən panel müzakirələrdə Hovard Universitetinin müəllimi, "One St. Martin Association" təşkilatının prezidenti, Sent-Martinin sabiq naziri Roda Rebekka Arrindell, "Repatriasiya və yenidən məskunlaşma hüququ məcburi şəkildə öz doğma yurdlarından çıxarılmış insanların hüquqlarının bərpasını nəzərdə tutur. Bizim üçün bu hüquq bütün məcburi köçürülmüş xalqlara şamil olunur", - deyə vurğulayıb.

Roda Rebekka Arrindell BMT-ni bu istiqamətdə daha fəal rol oynamağa çağırıb: "Əgər Birləşmiş Millətlər Təşkilatı bütün xalqların öz siyasi gələcəyini müəyyən etmək hüququna həqiqətən sadiqdirsə, bu prinsip istisnasız olaraq bütün xalqlara şamil edilməlidir".

## "Qərbi Azərbaycan - qayıdış xeyriyyə deyil, hüquqdur"

Bu gün dünyada humanitar hüquq baxımından ən vacib məsələlərdən biri də məcburi köçürülmüş və etnik təmizləməyə məruz qalmış xalqların doğma yurdlarına qayıdış hüququdur. Bu xüsusda, indiki Ermənistan ərazisindən - öz ata-baba torpaqlarından didərgin salınmış qərbi azərbaycanlıların qayıdış hüququ beynəlxalq müstəvidə getdikcə daha böyük aktuallıq kəsb edir.

Beynəlxalq konfransın açılışında çıxış edən BTQ-nin kommunikasiya və Data Analitikası şöbəsinin müdiri Elgün Hacıyev qərbi azərbaycanlıların qayıdış hüququ məsələsinə toxunub. O bildirib ki, qərbi azərbaycanlıların keçmiş yaşayış yerlərinə qayıdış hüququ məsələsi BMT-nin müvafiq qurumları və beynəlxalq mexanizmləri çərçivəsində nəzərdən keçirilməyə layiqdir: "Qayıdış hüququ fundamental insan hüququdur. Öz doğma yurduna qayıtmaq yalnız fiziki qayıdış deyil. Bu, kimliyin, ləyaqətin, tarixi yaddaşın və mədəni davamlılığın bərpası deməkdir".

"Məcburi köçkünlükdən doğma yurda - kimlik, tarixi yaddaş və qayıdış hüququ" adlı paneldə Corc Meyson Universitetinin doktorantı, Təhlükəsizlik Siyasəti Araşdırmaları Mərkəzinin baş redaktoru Əli Məmmədov çıxış edərək qərbi azərbaycanlıların Ermənistandakı keçmiş yaşayış yerlərinə qayıdışı məsələsinə diqqət çəkib. O bildirib ki, üç onillikdən artıq vaxt keçməsinə baxmayaraq, azərbaycanlı qaçqınların mənşə yerləri ilə əlaqəsi, qayıdış və mədəni irsin qorunması məsələləri aktuallığını saxlayır.

Dekolonizasiya və Qərbi Azərbaycana qayıdış hüququ kimi strateji məsələlərin BMT-nin mənzil-qərargahında gündəmə gətirilməsi müstəsna əhəmiyyət daşıyır. Fransanın, digər müstəmləkəçi dövlətlərin neokolonial siyasətindən əziyyət çəkən icmalarla etnik təmizləmə qurbanı olmuş qərbi azərbaycanlıların problemlərinin birgə müzakirəsi mübarizənin miqyasını qlobal səviyyəyə qaldırır.

Konfransın yekununda Bakı Təşəbbüs Qrupu və tədbir iştirakçıları adından BMT-nin Xüsusi Məruzəçilərinə birgə müraciət qəbul edilib.

Birgə müraciətdə konfrans iştirakçıları BMT-nin Xüsusi Məruzəçilərini Qərbi Azərbaycanda, Bonerdə, Arubada və Sent-Martində yaşayan və ya bu ərazilərlə bağlı olan şəxslər, eləcə də Siqh, Konqolu, Burundi və Ruanda icmalarının üzvləri daxil olmaqla, təsirə məruz qalmış şəxslərin təhlükəsiz, könüllü, ləyaqətli və davamlı qayıdışının dayanıqlı sülhün mühüm tərkib hissəsi kimi təşviqinin davam etdirilməsinə çağırmağa dəvət ediblər.

"Qayıdış hüququ və dekolonizasiya: gecikmiş tarixi ədalətin bərpası" mövzusunda beynəlxalq konfransın iştirakçıları səssiz aksiya da keçiriblər. Aksiya zamanı iştirakçılar qayıdış hüququnun təmin edilməsi, dekolonizasiya prosesinin başa çatdırılması və tarixi ədalətin bərpasına çağıran plakatlar qaldırıblar.

Plakatlarda "Qərbi Azərbaycan - qayıdış xeyriyyə deyil, hüquqdur", "Ədalət qayıdış hüququndan başlayır", "Qayıdış olmadan dekolonizasiya tamamlanmayıb", "Müstəmləkəçiliyə son qoyulsun, tarixi ədalət bərpa edilsin", "Öz müqəddəratını təyinetmə dekolonizasiyaya aparan yoldur" şüarları yer alıb.

BMT platformasından səslənən bu çağırışlar bir daha sübut edir ki, neokolonializmə qarşı mübarizə qlobal əhəmiyyət kəsb edir və məcburi köçürülmüş xalqların qayıdış hüququ təmin edilməlidir. Tarixi ədalət yalnız bütün xalqların ləyaqətli, təhlükəsiz və suveren inkişafı baş verdiyi halda təmin edilmiş olar.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan-Türkiyə-Özbəkistan birliyinin gücü

## Qardaş ölkələrin birgə hərbi təlimləri davam edir

**Sentyabrın 22-də başlayan Azərbaycan, Türkiyə və Özbəkistan hərbi qulluqçularının iştirakı ilə keçirilən "Birliyin Gücü - 2026" birgə təlimi uğurlu olub. Üç ölkənin hərbçiləri quruda, dənizdə və havada müxtəlif təlim-məşqləri həyata keçiriblər. Təlimdə icra ediləcək epizodlara uyğun olaraq Xocavənd rayonunda yerləşən "Qızılqaya", Naxçıvan Muxtar Respublikasında yerləşən "Qarabağlar" Təlim mərkəzlərində, eləcə də Xəzər dənizinin ölkəmizə aid akvatoriyasında yerləşən "Böyük Zirə" təlim sahəsində komandirlər tərəfindən yaranmış vəziyyətin qiymətləndirilməsi, təhlili və qərarların qəbul edilməsi üzrə tapşırıqlar yerinə yetirilib. Məşqlərdə əsas diqqət iştirakçı ölkələrin hərbi qulluqçuları tərəfindən tapşırıqların birgə icrası zamanı qarşılıqlı uzlaşmanın effektivliyinin artırılmasına yönəldilib. Təlimin əsas məqsədi dost və müttəfiq ölkələrin orduları arasında xüsusi əməliyyatların keçirilməsi sahəsində təcrübə mübadiləsinin aparılması, qarşılıqlı fəaliyyətlərin təşkili üzrə bacarıqların təkmilləşdirilməsidir.**



**Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri ARZU NAĞIYEV** qəzetimizə açıqlamasında deyib ki, "Birliyin gücü-2026" Azərbaycan, Özbəkistan və Türkiyə birgə təlimləri hərbi təhlükəsizlik sahəsində ən mühüm məsələlərdən biridir və təqdirəlayiq hadisə kimi dəyərləndirilir: "Bu təlimi, xüsusilə əhəmiyyətli edən məqam onun hansısa poliqonda, ərazidə deyil, həm Naxçıvanda, həm Qarabağda, həm də Xəzər dənizinin Azərbaycan akvatoriyasında keçirilməsidir. Müxtəlif coğrafi və əməliyyat şəraiti nəzərə alınaraq Türk Dövlətləri Təşkilatına daxil olan üç qardaş ölkənin hərbi bölmələrinin qarşılıqlı fəaliyyəti, imkanları sınaqdan keçirilir. Təlimlərə quru qoşunları ilə yanaşı, aviasiya, dəniz qüvvələri, PUA-ların cəlb olunması müasir döyüş şəraitinə uyğun kompleks yanaşma deməkdir".

Deputat qeyd edib ki, əsas məsələ təlimlərin koordinasiya və əməliyyat prosedurlarına uyğunlaşdırılmasıdır. Bu cür təlimlər yalnız hərbi texnikanın nümayişi deyil, müxtəlif orduların həqiqi döyüş şəraitinə uyğun qərar qəbul etməsi, qarşılıqlı əlaqələr yaratması, eyni tapşırığa fərqli rakursdan yanaşması baxımından əhəmiyyət daşıyır. Təlim çərçivəsində antiterror əməliyyatları, girovların azad edilməsi, dənizə desant çıxarılması, təxliyə məsələsi, minalardan təmizlənmə tapşırıqları da yerinə yetirilib.

A.Nağıyev vurğulayıb ki, təlimin Qarabağ, Naxçıvan və Xəzər kimi strateji məkanları əhatə etməsi Azərbaycan üçün xüsusi məna daşıyır: "Bu təlimlər Azərbaycan Ordusunun daim təkmilləşdirilməsinə, gücləndirilməsinə xidmət edir. Digər tərəfdən, Azərbaycan-Türkiyə-Özbəkistanın bu cür birgə hərbi təlimləri türk dövlətləri arasında təhlükəsizlik sahəsində praktiki əməkdaşlığın güclənməsinə və dərinləşməsinə təsir göstərir. Türkiyə NATO-nun üzvüdür, Azərbaycanın bütün müasir standartlara uyğun ordusu var. Özbəkistanın Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) olmasına baxmayaraq, əsas məqsəd üçüncü tərəfə qarşı yönəlmiş fəaliyyət deyil, dövlətlərin öz təhlükəsizliyini və müdafiə qabiliyyətini artırmasıdır".

Komitə sədri birgə hərbi təlimlərin verdiyi mesajlara da toxunub: ""Birliyin gücü - 2026" birgə hərbi təliminin əsas mesajları bunlardır: müasir təhlükəsizlik, onun qorunması, gələcəkdə ərazi bütövlüyünə, eyni zamanda suverenliyə qarşı olan təhdidlərin qarşısının alınmasında birgə addımların atılmasıdır. Azərbaycan,Türkiyə və Özbəkistan bu istiqamətdə təcrübə mübadiləsi aparır və regional təhlükəsizlik baxımından əhəmiyyətli nəticə yarada bilir".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*



# Bakıda qurulan yeni tərəfdaşlıqlar

## Bu, 2-ci Beynəlxalq İnvestisiya Forumunda real layihələrdə əksini tapdı

**Dünya iqtisadiyyatında yeni reallıqların formalaşdığı bir vaxtda investisiya üçün etimad, sabitlik və bağlantı əvvəlkindən daha böyük əhəmiyyət daşıyır. Sentyabrın 25-26-da Bakının iqtisadi gündəliyi də məhz bu üç anlayış ətrafında qurulmuşdu.**

Azərbaycanın evsahibliyi etdiyi 2-ci Beynəlxalq İnvestisiya Forumu dünyanın müxtəlif ölkələrindən investorları, maliyyə institutlarını və biznes dairələrini bir araya gətirdi. Forumda yalnız mövcud imkanlar deyil, həm də dəyişən qlobal iqtisadi mühitdə yeni investisiya istiqamətləri, regional əməkdaşlıq və Azərbaycanın Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən iqtisadi bağlantılardakı rolu müzakirə olundu. Beləliklə, iki gün ərzində Bakıda səslənən fikirlər və imzalanan sənədlər Azərbaycanın investisiya gündəliyinin yeni mərhələsinə dair mühüm mesajlar verdi.

Qlobal iqtisadi münasibətlərin yeni reallıqlarla üz-üzə qaldığı, təchizat zəncirlərinin yenidən formalaşdığı bir vaxtda investisiya üçün etimad və sabitlik xüsusi əhəmiyyət daşıyır. Prezident İlham Əliyev forumun iştirakçılarına müraciətində bu məqama diqqət çəkərək qeyd edib: "Belə bir şəraitdə sabitlik, əlaqəlilik və etibarlı tərəfdaşlıqlar investisiyalar üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir". Məhz bu, Bakıda keçirilən forumun əsas müzakirə xəttini müəyyənləşdirib. Aparılan müzakirələr göstərdi ki, bugünkü investisiya gündəliyi yalnız kapital qoyuluşlarının həcmi ilə məhdudlaşmır. Söhbət, eyni zamanda yeni iqtisadi bağlantıların qurulmasından, regional dəyər zəncirlərinin formalaşdırılmasından, enerji və nəqliyyat layihələrinin genişləndirilməsindən, rəqəmsal texnologiyaların tətbiqindən və "yaşıl keçid"in maliyyələşdirilməsindən gedir.

Forumun ilk günündə bu istiqamətlərin hər biri üzrə ayrıca müzakirələr aparıldı. Azərbaycanın regionlar arasında strateji keçid kimi rolu, Orta dəhlizin inkişafı, ABŞ-Azərbaycan iqtisadi tərəfdaşlığı və yeni bağlantı imkanları, regional enerji əlaqələri, "yaşıl enerji", süni intellekt, rəqəmsal transformasiya, kapital bazarları və beynəlxalq maliyyə əməkdaşlığı əsas mövzular sırasında yer alıb. Kənd təsərrüfatı, əczaçılıq, su ehtiyatlarının idarə olunması, maliyyə sektoru və investisiyaların təşviqi isə gündəliyin digər mühüm istiqamətlərini formalaşdırıb.

Bütün bu istiqamətlərin kəsişdiyi əsas məqam isə iqtisadiyyatın yeni inkişaf mənbələri hesabına daha da şaxələndirilməsidir. Forumda səslənən fikirlər və təqdim olunan təşəbbüslər göstərdi ki, diqqət təkcə maliyyə resurslarının cəlbinə deyil, həm də texnologiya, innovasiya və yeni tərəfdaşlıqlar hesabına əlavə dəyərin artırılmasına yönəlib. Bu yanaşma Azərbaycanın regional iqtisadi əlaqələrdə rolunu daha da genişləndirən yeni əməkdaşlıq imkanları yaradır.

Forumun investisiya gündəliyinin genişliyi konkret razılaşmalarda da öz əksini tapdı. İki gün ərzində müxtəlif sahələri əhatə edən əməkdaşlıq və investisiya sənədlərinin imzalanması müzakirələrin real layihələrlə tamamlandığını göstərdi. Tədbir çərçivəsində ümumilikdə 23 sənəd imzalanıb. Bu sənədlərin əhatə etdiyi investisiya layihələrinin ümumi dəyəri 10,8 milyard dollar təşkil edir. Rəqəmin miqyası ilə yanaşı, diqqətçəkən məqam investisiya portfelinin şaxələnməsidir.

Beləliklə, Bakıda iki gün davam edən müzakirələr yalnız investisiya imkanlarının təqdimatı ilə yekunlaşmadı. Forumun nəticələri Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrinə beynəlxalq kapitalın və yeni texnologiyaların cəlb olunması, xarici tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi və yeni layihələrin reallaşdırılması baxımından konkret göstəricilərlə ifadə olundu.

Bu baxımdan enerji sektoru forumun investisiya gündəliyində xüsusi yer tutdu. Azərbaycanda günəş və külək enerjisi layihələri üzrə əməkdaşlığa dair sənədin imzalanması ölkənin bərpaolunan enerji potensialının beynəlxalq investorlar üçün yaratdığı imkanları bir daha gündəmə gətirdi. Regional enerji bağlantıları və "yaşıl keçid"lə bağlı panel müzakirələrində isə bərpaolunan enerjiyə investisiyaların artırılması, enerji təhlükəsizliyinin gücləndirilməsi və Azərbaycanın regional enerji bağlantılarındakı rolu diqqət mərkəzində saxlanıldı.

Əczaçılıq sahəsində də konkret əməkdaşlıq istiqaməti formalaşdı. Slovakiyanın "Saneca Pharmaceuticals" şirkəti ilə Azərbaycanda əczaçılıq məhsullarının istehsalına dair Anlaşma Memorandumunun imzalanması bu sektorun da yeni investisiya imkanları sırasında yer aldığını göstərdi. Bununla yanaşı, su sayğaclarının istehsalı imkanlarının araşdırılması üzrə SOCAR, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi və BƏƏ-nin "Esyasoft Technologies" şirkəti arasında üçtərəfli anlaşma imzalandı.

Beləliklə, forum çərçivəsində ortaya çıxan layihələr Azərbaycanın investisiya gündəliyinin yalnız enerji və ənənəvi sənaye ilə məhdudlaşmadığını göstərdi. "Yaşıl enerji", yüksək texnologiyalar, rəqəmsal iqtisadiyyat, aqrar istehsal, əczaçılıq və su təsərrüfatı kimi sahələrin eyni investisiya platformasında bir araya gəlməsi iqtisadiyyatın yeni inkişaf istiqamətlərinin daha geniş çərçivədə formalaşdığını nümayiş etdirdi.

Forumun investisiya gündəliyində əsas xətlərdən biri də kapitalın yalnız maliyyə resursu kimi deyil, yeni texnologiya, innovasiya və təcrübə gətirən tərəfdaşlıq vasitəsi kimi qiymətləndirilməsi idi. Prezident İlham Əliyev forum iştirakçılarına müraciətində bu yanaşmanı belə ifadə edib: "İnvestisiyalara yanaşmamız yalnız kapital cəlb etməklə məhdudlaşmır. Biz texnologiyanı, təcrübəni, innovasiyanı və yeni bazarlara çıxışı yüksək qiymətləndirir, investorlar üçün dayanıqlı dəyər yaradan, eyni zamanda Azərbaycan iqtisadiyyatının modernləşməsini və rəqabətqabiliyyətliliyini gücləndirən tərəfdaşlıqlara üstünlük veririk".

Qeyd edək ki, bunlar forumda müzakirə olunan layihələrin istiqamətlərində də öz əksini tapdı. Enerjidən rəqəmsal texnologiyalara, sənayedən kənd təsərrüfatına qədər müxtəlif sahələr üzrə əməkdaşlıq imkanlarının gündəmə gətirilməsi investisiya siyasətinin daha geniş iqtisadi hədəflərlə əlaqələndirildiyini göstərdi.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Beynəlxalq İnvestisiya Forumu yeni iqtisadi mərhələnin strateji platformasına çevrilir

II Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun əhəmiyyətini yalnız xarici investorların Bakıda toplaşması ilə məhdudlaşdırmaq olmaz. Forum Azərbaycanın uzunmüddətli iqtisadi strategiyasının - kapitalın cəlbi, qeyri-neft sektorunun şaxələndirilməsi, texnoloji modernləşmə və ölkənin regional iqtisadi mərkəzə çevrilməsi siyasətinin praktik platformasıdır.



**Milli Məclisin deputatı Aydın HÜSEYNOV** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin forum çərçivəsində səsləndirdiyi statistik göstəricilər Azərbaycanın investor qarşısına artıq formalaşmış makroiqtisadi baza ilə çıxdığını göstərir: "Son 20 ildə ölkə iqtisadiyyatına 350 milyard ABŞ dollarından çox investisiya cəlb olunub və bunun təxminən yarısını birbaşa xarici investisiyalar təşkil edib. Dövlət borcunun ÜDM-ə nisbətinin təxminən 20 faiz, xarici borcun isə 5,6 faiz səviyyəsində olması, valyuta ehtiyatlarının xarici borcu dəfələrlə üstələməsi investor üçün fiskal dayanıqlılıq və maliyyə sabitliyi göstəricisidir".

Forumun digər mühüm tərəfinin Azərbaycanın coğrafi mövqeyinin iqtisadi kapitala çevrilməsi olduğunu deyən A.Hüseynov əlavə edib ki, 2026-cı ildə ölkə ərazisindən tranzit yükdaşımalarının 16 milyon tona çatması, 2030-cu ilədək isə Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində bu göstəricinin 25 milyon tona və daha yuxarı səviyyəyə yüksəldilməsi hədəflənir. Bununla Azərbaycan yalnız enerji ixracatçısı deyil, Avropa ilə Asiya arasında istehsal, logistika və kapital axınlarını birləşdirən iqtisadi qovşaq kimi mövqeyini gücləndirir. "Əsas məqam ondan ibarətdir ki, forum siyasi bəyanatlarla məhdudlaşmadı. "Abşeron" qaz-kondensat yatağının tammiqyaslı işlənməsi üzrə Yekun İnvestisiya Qərarı, SOCAR-ExxonMobil hasilatın pay bölgüsü sazişi, "Oracle" ilə texnoloji əməkdaşlıq, "UFlex Group", "Carlsberg Group" və Ələt Azad İqtisadi Zonası üzrə investisiya sənədlərinin mübadiləsi kapitalın enerji ilə yanaşı, sənaye, rəqəmsal texnologiyalar və qeyri-neft istehsalına istiqamətləndirildiyini göstərir", - deyə o bildirib.

Deputat diqqətə çatdırıb ki, forumun iqtisadi fəlsəfəsini "Minkənd" KSES və "Tekstil Klasteri" layihələri də konkret şəkildə nümayiş etdirir. 3,2 MVt gücündə "Minkənd" stansiyasının illik 11,8 milyon kilovat-saat elektrik enerjisi istehsal etməsi nəzərdə tutulur. Dövlət-özəl tərəfdaşlığı əsasında həyata keçirilən beş KSES-in ümumi dəyəri 53,2 milyon manat, ümumi gücü 12,9 MVt, illik istehsal potensialı isə 44,1 milyon kilovat-saatdır. Bu, işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" potensialının iqtisadi dövriyyəyə daxil edilməsinin praktik nümunəsidir. Mingəçevir Sənaye Parkındakı "Tekstil Klasteri" isə digər strateji istiqaməti - xammaldan son məhsuladək dəyər zəncirinin ölkə daxilində qurulmasını göstərir. Layihədə pambıqdan başlayaraq mahlıc, iplik, boyalı parça və hazır geyim istehsalı nəzərdə tutulur. İllik istehsal gücü 16 min ton mahlıc, 11 min ton iplik, 7,3 min ton boyalı parça və 11 milyon köynək həcmində planlaşdırılır.

A.Hüseynov vurğulayıb ki, forumun Azərbaycan üçün strateji əhəmiyyəti xarici kapitalı sadəcə ölkəyə gətirmək deyil, onu istehsala, texnologiyaya, ixraca, enerji təhlükəsizliyinə və regional məşğulluğa çevirməkdən ibarətdir: "Dövlət siyasətinin yeni mərhələsində əsas göstərici investisiyanın həcmi ilə yanaşı, onun yaratdığı əlavə dəyər, texnologiya transferi, məhsuldarlıq və qeyri-neft ixracıdır. 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu məhz bu modelin beynəlxalq təqdimatı və konkret layihələrə çevrilməsi baxımından strateji iqtisadi platforma kimi çıxış edir".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Aqrar sektorda müasir texnologiyalardan istifadə günün tələbidir

Müasir dünyanın qarşılaşdığı problemlərdən biri də ərzaq təhlükəsizliyidir. Dünya əhalisinin sürətlə artması, qlobal iqlim dəyişikliyindən qaynaqlanan proseslər insanların yaşam tərzinə mənfi təsir göstərməklə yanaşı, ərzaqla təminatını da çətinləşdirir.

İnsanların bu problemlə üz-üzə qalması həm də dünyada baş verən digər proseslərlə bağlıdır. Yaxın Şərq və Rusiya-Ukrayna müharibəsi qlobal yanacaq və gübrə təchizatı zəncirinin qırılmasına səbəb olub. Bu üzdən aqrar sahədə məhsuldarlıq xeyli aşağı düşüb. Digər tərəfdən, dünyanın ən böyük taxıl ixracatçısı olan Rusiya savaş səbəbindən dünya bazarına məhsul çıxara bilmir.

Ölkəmizdə ərzaq idxalından asılılığı azaltmaq üçün aqrar islahatlar aparılır, dövlət kəndliyə dəstəyini əsirgəmir. Ötən illərlə müqayisədə Azərbaycanda aqrar məhsulların istehsalı xeyli artıb. Bunun nəticəsidir ki, bir çox məhsullarla özümüzü təmin etməklə yanaşı, ixrac da edirik. Ancaq bir sıra strateji kənd təsərrüfatı məhsulları ilə təminatda problemlərimiz hələ qalmaqdadır. Xüsusilə taxıl istehsalında istəyimizə nail ola bilməmişik.

Prezident İlham Əliyev ərzaq təhlükəsizliyinə xüsusi önəm verir və bunun daxili siyasətin əsas prioritetlərdən biri olduğunu bildirir. Dövlətimizin başçısı ərzaq təhlükəsizliyi ilə bağlı Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda demişdir: "Yerli ehtiyacların ödənilməsi çərçivəsində daxili siyasətin əsas prioritetlərindən biri ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Qlobal iqlim dəyişikliyinin kəskin fəsadları və su ehtiyatlarının azalması kimi faktorlar kənd təsərrüfatı sektorunda yeni yanaşmaların tətbiqini zəruri edir. Mövcud çağırışlara cavab olaraq, ölkədə Ərzaq Təhlükəsizliyi üzrə Dövlət Proqramı qəbul edilib. Sektor üzrə müəyyən məhdudiyyətlər və təbii çətinliklər olsa da, görülən tədbirlər kənd təsərrüfatının potensialını artırmağa yönəlib. Ekspertlərin qiymətləndirməsinə görə, həyata keçirilən islahatlar və yaradılan şərait bu sahəni həm daxili, həm də xarici investorlar üçün cəlbedici biznes mühitinə çevirir".

Ölkədə icra edilən aqrar islahatların hədəfi sahənin inkişafı üçün müasir inkişaf modellərindən və yeni texnologiyalardan istifadə olunmasıdır. Belə ki, indi dünyada kənd təsərrüfatında az əkin sahələrindən səmərəli istifadə etməklə daha yüksək məhsuldarlığa nail olmağa üstünlük verilir.

Məlum olduğu kimi, aqrar sektorda məhsuldarlığın artırılmasında suvarma önəmli rol oynayır. Azərbaycan dünyada su resurslarının məhdud olduğu ölkələrdəndir. Bu üzdən sudan səmərəli istifadə etmək kənd təsərrüfatında vacib məsələdir. Hazırda ölkəmizdə təxminən 130 min hektar sahədə müasir suvarma sistemlərindən istifadə olunur, hədəf isə 2030-cu ilədək bu rəqəmi 300 min hektara çatdırmaqdır. Görünən odur ki, hələ uzun illər bu sahədə olan problemlərin həlli üçün müəyyən tədbirlərin həyata keçirilməsi lazım gələcək.



Dövlət tərəfindən indiyədək aqrar sektora göstərilən dəstək öz nəticəsini verib. Belə ki, son 10 il ərzində kənd təsərrüfatı məhsullarının istehsalı real istifadədə 37,8 faiz, bağçılıq məhsullarının istehsalında isə 2,7 dəfə artıb. Aqrar sektorda məhsul istehsalının artması ixracın dinamikasının yüksəlməsinə müsbət təsir göstərir. Hazırda ölkədən dünya bazarına çıxarılan qeyri-neft-qaz sektoruna aid malların siyahısında kənd təsərrüfatı məhsullarının çəkisi yüksəkdir. Bir sözlə, aqrar sektorun gəlirliyi ildən-ilə artır.

Aqrar sektorda məhsul istehsalının yüksəlməsində su ilə yanaşı, daha məhsuldar sortlardan istifadə edilməsi önəmli rol oynayır. Aqrar sektorun qarşısında duran əsas məsələlərdən biri də iqlim dəyişikliyinə davamlı və yüksək reproduksiyalı toxumların istehsal edilməsidir. Bu sahədə olan problemləri aradan qaldırmaq üçün "Toxumçuluq haqqında" qanun qəbul edilib. Yeni qanun toxum və tinglərin sertifikatlaşdırılmasına, həmçinin beynəlxalq standartlara uyğunlaşdırılmasına imkan yaradacaq. Bu qanun həmçinin özəl sektorun toxumçuluğa cəlb edilməsi baxımından böyük əhəmiyyət daşıyır. Subsidiyalaşdırma ilə fermerlərin toxumçuluğa olan marağını artırmaq mümkündür.

Ölkəmiz məhsul istehsalında önəmli rolu olan toxumçuluğun inkişafı üçün beynəlxalq təşkilatlarla da yaxından əməkdaşlıq edir. Azərbaycan BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə uzun illərdir ki, sıx əlaqə saxlayır. Təşkilatın Avropa və Mərkəzi Asiya üzrə regional nümayəndəsi, baş direktorun köməkçisi Viorel Gutu deyir: "Azərbaycanla tərəfdaşlıq həm texniki yardım göstərilməsi, həm kənd təsərrüfatı siyasətinin formalaşması, həm də həmin siyasətin uğurla həyata keçirilməsi sahələrini əhatə edir. Yeni tərəfdaşlıq sazişi FAO ilə Azərbaycan arasında artıq yekunlaşmaq üzrədir. Onun növbəti mərhələsi toxumçuluq sahəsini əhatə edəcək. Biz bu məqsədlə Azərbaycan hökuməti ilə yaxından əməkdaşlıq edəcəyik".

Son dövrlər dövlət tərəfindən aqrar sektora göstərilən diqqətin daha da artması qlobal səviyyədə baş verən geosiyasi proseslərlə sıx bağlıdır. Belə ki, dünyadakı mövcud müharibələrin, siyasi qarşıdurmaların mənfi təsir göstərdiyi sahələrdən biri də kənd təsərrüfatıdır. Qeyd etdiyimiz kimi, dünya ticarətində və təchizat zəncirində böyük qırılmalar baş verir. Qarşıdakı illərdə dünya böyük ərzaq böhranı ilə üzləşə bilər. Buna indidən hazır olmaq və lazımi tədbirlərin görülməsi vacibdir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



**27 sentyabr Azərbaycan tarixində həm böyük Zəfərə aparan yolun başlanğıcı, həm də Vətən uğrunda canından keçən qəhrəmanların xatirəsinin əbədiləşdiyi gündür. Altı il əvvəl məhz bu tarixdə başlayan hadisələr xalqımızın taleyində yeni səhifə açdı. Otuz ilə yaxın işğal altında qalan torpaqların azadlığı uğrunda mübarizə 44 gün ərzində Azərbaycanın hərbi-siyasi tarixini dəyişən böyük Qələbə ilə nəticələndi. Sentyabrın 27-si ölkəmizdə təkcə müharibənin başladığı tarix kimi deyil, Vətənin ərazi bütövlüyü naminə həyatını fəda edən şəhidlərimizin əziz xatirəsinin dərin ehtiramla yad edildiyi Anım Günü kimi qeyd olunur.**

## Vətən müharibəsinin hər günü şanlı tariximizdir



Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı sərəncamla sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü təsis edilib. Sərəncamda Vətən müharibəsində qəhrəmancasına döyüşən, Azərbaycan bayrağını azad edilmiş torpaqlarda dalğalandıran, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən əsgər və zabitlərimizin xatirəsinə dərin ehtiram ifadə olunur.

2020-ci ilin sentyabrına aparan yol isə uzun və mürəkkəb idi. Ermənistanın təcavüzkar hərəkəti nəticəsində Azərbaycan ərazilərinin bir hissəsi təxminən 30 il işğal altında qaldı, yüz minlərlə insan doğma yurdlarından didərgin düşdü. Şəhər və kəndlər dağıdıldı, tarixi, mədəni və dini abidələrə ciddi ziyan vuruldu. Münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində uzun illər aparılan proses isə gözlənilən nəticəni vermirdi. 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə işğalçı qüvvələrin Azərbaycan ərazilərindən çıxarılması tələb olunsa da, bu tələblər illərlə icra edilmədi. Azərbaycan bütün bu müddətdə ərazi bütövlüyünün beynəlxalq hüququn prinsipləri əsasında bərpasını tələb edir, məsələnin sülh yolu ilə həllinə çalışırdı. Lakin danışıqlar prosesində irəliləyişin əldə edilməməsi, təmas xəttində və dövlət sərhədində davam edən hərbi təxribatlar vəziyyəti getdikcə daha da gərginləşdirirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin müxtəlif istiqamətlərdən Azərbaycanın yaşayış məntəqələrini və hərbi mövqelərini ağır silahlardan atəşə tutmasından sonra Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. Həmin gün ölkədə hərbi vəziyyətin elan olunması barədə qərar qəbul edildi. Beləcə, tariximizə Vətən müharibəsi kimi daxil olan 44 günlük mübarizə başladı.

Müharibənin ilk günündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciəti qarşıdakı mübarizənin əsas siyasi və mənəvi mesajını ifadə etdi. Dövlət başçısı çıxışını sonradan Zəfərin rəmzlərindən birinə çevriləcək sözlərlə tamamladı: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Bu müraciət 44 günlük müharibə ərzində Prezidentin xalqa etdiyi müraciətlərin başlanğıcı oldu. Döyüşlər davam etdikcə azad edilən şəhər və kəndlər barədə xəbərlər ölkədə böyük ruh yüksəkliyi yaratdı, cəbhədən gələn hər yeni qələbə xəbəri xalqın ordusuna inamını daha da artırırdı. Ön cəbhədə Azərbaycan əsgəri döyüşür, arxa cəbhədə isə milyonlarla insan eyni amal ətrafında birləşirdi.

Vətən müharibəsində qazanılan Qələbənin təməlində uzun illər ərzində aparılan dövlət və ordu quruculuğu dayanırdı. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra müstəqil dövlətçiliyin möhkəmləndirilməsi ilə yanaşı, nizami və güclü ordunun yaradılması əsas prioritetlərdən biri oldu. Sonrakı illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasət davam etdirildi, Silahlı Qüvvələrin maddi-texniki bazası yeniləndi, müasir silah və texnologiyaların tətbiqi genişləndirildi, hərbi qulluqçuların peşəkarlığının artırılmasına xüsusi diqqət göstərildi.

2020-ci ilin payızında illərlə görülən hazırlığın nəticəsi döyüş meydanında özünü göstərdi. Azərbaycan Ordusu mürəkkəb relyef və düşmənin möhkəmləndirdiyi müdafiə xətlərinə baxmayaraq, bir sıra istiqamətlərdə irəlilədi. Döyüşlərin gedişində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri, Hadrut qəsəbəsi, yüzlərlə yaşayış məntəqəsi və strateji yüksəkliklər azad edildi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonra Ağdam, Kəlbəcər və Laçın rayonları da Azərbaycana qaytarıldı, 44 günlük müharibə Azərbaycanın ərazi bütövlüyünün bərpasında həlledici mərhələ oldu.

Qələbəyə aparan yol yalnız döyüş meydanından keçmirdi. 44 gün ərzində Azərbaycan cəmiyyəti böyük həmrəylik nümayiş etdirdi. İnsanlar orduya dəstək göstərir, könüllülər müxtəlif təşəbbüslərə qoşulur, həkimlər yaralıların həyatını xilas etmək üçün gecə-gündüz çalışırdılar. Müəllimdən həkimə, gəncdən yaşlıya qədər cəmiyyətin müxtəlif təbəqələri bir məqsəd ətrafında birləşmişdi. Dövlət, xalq və ordu birliyi həmin günlərdə sadəcə şüar deyil, real ictimai qüvvə kimi özünü göstərdi. Bu birliyin ən böyük mənəvi dayağı isə döyüş meydanında misilsiz şücaət göstərən Azərbaycan əsgəri idi. Hər azad olunan kənd, hər geri qaytarılan yüksəklik ağır döyüşlərin, böyük fədakarlığın nəticəsi idi. Şəhidlər Vətənin ərazi bütövlüyü naminə həyatlarını fəda etdilər. Qazilərimiz sağlamlıqlarını itirmək bahasına döyüşərək xalqımızın qəhrəmanlıq salnaməsinə öz adlarını yazdılar. Məhz buna görə 27 sentyabrın mənası yalnız bir hərbi əməliyyatın başlanğıcı ilə məhdudlaşmır. Anım Günü Zəfərin hansı qiymətə qazanıldığını hər il yenidən xatırladır.

Bu tarix Azərbaycan ailələrinin Vətən qarşısında göstərdiyi fədakarlığın, şəhid analarının, atalarının, övladlarının və doğmalarının daşıdığı böyük mənəvi yükün ümumxalq yaddaşında yaşadılmasıdır.

44 günün hər biri Azərbaycan Ordusunun döyüş salnaməsinə yeni səhifə əlavə etdi. Müharibə başa çatdıqdan sonra Prezident İlham Əliyev həmin günlərin tarixi əhəmiyyətini belə ifadə etmişdi: "Bu 44 günün hər günü bizim şanlı tariximizdir. Hər gün Azərbaycan Ordusu irəli gedirdi, hər gün yeni şəhərlər, kəndlər, qəsəbələr, yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Vətən müharibəsinin nəticələri Azərbaycanın sonrakı inkişaf mərhələsini də müəyyənləşdirdi. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanıldı. Yeni avtomobil və dəmir yolları çəkildi, beynəlxalq hava limanları istifadəyə verildi, enerji, su və digər infrastruktur sistemləri quruldu, şəhər və kəndlərin yenidən salınması istiqamətində layihələr həyata keçirildi. Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı başladı. Bu gün azad edilmiş ərazilərdə tikilən yeni yaşayış məntəqələri, məktəblər, xəstəxanalar və digər sosial obyektlər yalnız quruculuq prosesinin göstəricisi deyil. Onlar illərlə doğma yurdlarına qayıtmaq arzusu ilə yaşayan insanların ümidlərinin gerçəkləşməsinin ifadəsidir. Bir vaxtlar döyüşlərin getdiyi torpaqlarda həyat yenidən qurulur, dağıdılmış şəhər və kəndlər dirçəldilir.

Altı il əvvəl başlayan 44 günlük Vətən müharibəsi Azərbaycan xalqının yaddaşında milli həmrəyliyin ən güclü nümunələrindən biri kimi yaşayır. Həmin günlərdə bütün ölkəni bir amal - torpaqların azadlığı birləşdirdi. Ön cəbhədə döyüşən əsgərin arxasında bütöv bir xalqın dayandığını göstərən bu birlik Zəfərin əsas mənəvi dayaqlarından oldu. Bu gün 27 sentyabrı anarkən həmin tarixin iki böyük mənası bir-birini tamamlayır. Bir tərəfdən, bu, Azərbaycanın Zəfərə doğru başladığı yolun ilk günüdür. Digər tərəfdən isə həmin Zəfəri mümkün edən insanların - Vətən uğrunda həyatını fəda edən şəhidlərin xatirəsinin qarşısında ehtiramla baş əydiyimiz gündür.

Şəhidlərin ömrü yarımçıq qalsa da, uğrunda döyüşdükləri Vətən bütövləşdi. Onların azad görmək istədikləri torpaqlarda bu gün Azərbaycan bayrağı dalğalanır, insanlar öz doğma yurdlarına qayıdır. İllər keçəcək, yeni nəsillər yetişəcək, Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər, kəndlər qurulacaq. Lakin 2020-ci ilin 27 sentyabrında başlayan yol və bu yolda canından keçənlərin xatirəsi Azərbaycan xalqının yaddaşında daim yaşayacaq. Çünki Zəfərin tarixini yalnız azad edilmiş torpaqlar deyil, həmin torpaqlar uğrunda döyüşənlərin iradəsi, qəhrəmanlığı və Vətən sevgisi yazdı.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# ZƏFƏR gündəliyi

## 30 sentyabr 2020-ci il

### 30 sentyabr

### 3 gündə 2300 canlı qüvvə, 200-dən artıq artilleriya, 130-dək tank məhv edilib

İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edib.



Müdafiə Nazirliyi məlumat yayaraq bildirib ki, sentyabrın 27-dən 30-dək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tank əleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

### Cəbrayıl istiqamətində düşmənin döyüş texnikaları sıradan çıxarılıb

Cəbhənin Cəbrayıl rayonu istiqamətində düşmənin döyüş texnikaları bölmələrimiz tərəfindən məhv edilib.

Səhər saat 08:00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutub. Mülki infrastruktura ziyan dəyib və yaralananlar olub.

Düşmənin artilleriya bölmələri Goranboy rayonunun Aşağı Ağcakənd kəndini də atəşə tutmağa başlayıb.

### Düşmənin "S-300" zenit-raket qurğusu məhv edilib

Xocalı rayonunun Şuşakənd ərazisində düşmənin 1 "S-300" zenit-raket qurğusu sıradan çıxarılıb.

İtirilmiş mövqeləri geri qaytarmaq üçün Suqovuşan istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən səhər saatlarından başlayaraq hücuma cəhd göstərib. Düşmənin bu fəaliyyətinin qarşısı alınıb və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əks-həmlə əməliyyatı keçirilib.

### Prezidentdən və Mehriban Əliyevadan yaralı qazilərimizə dəstək

Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Klinik Hospitalında müalicə olunan yaralı hərbçilərə baş çəkiblər.

Hər bir yaralı əsgərin vəziyyəti ilə maraqlanan İlham Əliyev deyib ki, həkimlər onların tezliklə sağalıb normal həyata qayıtmaları üçün əllərindən gələni edəcəklər.



Yaralılar isə tezliklə sağalıb yenidən döyüş bölgəsinə getmək, Vətən uğrunda haqlı savaşlarını davam etdirmək niyyətində olduqlarını bildiriblər. Ali Baş Komandan bir daha vurğulayıb ki, bu savaş tezliklə qələbəmizlə başa çatacaq: "Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar".

Baş sərkərdə döyüşlərin gedişatından da söz açaraq deyib ki, artıq dördüncü gün davam edən savaşda Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik.

### İlham Əliyev Şarl Mişelə bir daha həqiqətləri açıqladı

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Prezident İlham Əliyevə telefonla zəng edib.

Təmas xəttində hərbi əməliyyatların başlamasından narahatlığını ifadə edən Şarl Mişel münaqişənin sülh yolu ilə nizamlanmasının zəruri olduğunu bildirib.

İlham Əliyev isə bir daha əsl həqiqətləri söyləyib və işğalçının hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyətin Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşdüyünü bildirib.

### On minlərlə könüllü döyüşlərə qatılmaq istəyir

Müdafiə Nazirliyi döyüşlərə qatılmaq istəyən könüllülərə müraciət edib. Müraciətdə bildirilir ki, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz nazirliyə müraciət edərək ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildirib.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır. Bildirilir ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

### Ermənistan "Toçka-U" taktiki raket kompleksini tətbiq edib

Bölmələrimizin mövqelərini atəşə tutan düşmən topları dəqiq atəşlə məhv edilib. Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istəyib. Köməyə gələn ehtiyat qüvvələr tərəfimizdən aşkar olunaraq atəş zərbəsilə darmadağın edilib.

Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq edib.

### Düşmənin "Uraqan" yaylım atəşli reaktiv sistemi sıradan çıxarılıb

Son saatlarda cəbhənin müxtəlif istiqamətlərində düşmənin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "OSA" zenit-raket kompleksi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını və 2 ədəd D-20 haubitsa-topu məhv edilib.

Azərbaycan Ordusunun bölmələri tərəfindən saat 17:30-dək düşmənin 2 ədəd "OSA-AKM" zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 "Uraqan" yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 4 ədəd "D-20" haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilib və sıradan çıxarılıb.

### Düşmənin həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib

Suqovuşan istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağatıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib.

Axşam saatlarında keçirilən döyüş əməliyyatları nəticəsində düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemi məhv edilib.

*"Azərbaycan"*

## ADA Universitetində şanlı Zəfər tariximiz "Zəfər rəqsi" filminin nümayişi ilə anılıb

**ADA Universitetində Anım Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə ölkəmizin müxtəlif ali təhsil ocaqlarından tələbələr və müəllim heyəti, eləcə də döyüş meydanında odun-alovun içindən qələbəyə qədər getmiş qazilər, şəhid ailələrinin üzvləri bir araya gəliblər.**




Universitetdən AZƏRTAC-a verilən məlumata görə, tədbir Azərbaycan Dövlət himninin səsləndirilməsi və Vətənimizin suverenliyi uğrunda canlarını fəda etmiş qəhrəmanların xatirəsini birdəqiqəlik sükutla yad etməklə başlayıb.

Daha sonra çıxış edən "Ədibin Evi" Ədəbiyyata Dəstək Fondunun icraçı direktoru Şəfəq Mehrəliyeva tədbirdə nümayiş etdiriləcək "Zəfər rəqsi" filmi barədə məlumat verib. O qeyd edib ki, Azərbaycanın Qarabağ Zəfərinin beşilliyinə həsr edilən "Zəfər rəqsi" qısametrajlı bədii filmi "Ədibin Evi" tərəfindən keçirilən Mir Cəlal adına Hekayə Müsabiqəsinin qalib əsəri Yaşar Bünyadın "Heyvagülü" hekayəsinin motivləri əsasında çəkilib.

Tədbirin keçirildiyi gün, yəni sentyabrın 28-i həm də görkəmli yazıçı, ədəbiyyatşünas və pedaqoq Mir Cəlalın anım günü olduğunu xatırladan Şəfəq Mehrəliyeva əlavə edib: "Mir Cəlal Azərbaycan ədəbiyyatında hekayəçilik janrının ən parlaq nümayəndələrindən biridir. Onun irsi bizə xatırladır ki, böyük ədəbiyyat həmişə böyük həcm demək deyil. Bəzən bir neçə səhifəlik hekayə uzun bir roman qədər dərin düşüncə doğurur, kiçik bir hadisə bütöv bir dövrün mənzərəsini canlandırır. "Zəfər rəqsi" filmi ilə biz Mir Cəlalın məhz bu üslubunu əks etdirməyə çalışmışıq. Qısa 40 dəqiqəlik filmlə Azərbaycanın tarixi Zəfərinin çox tərəflərinə toxunmaq və onun arxasında duran nəinki keçmiş, həm də gələcəyimizə aid arzularımızı göstərməyə çalışmışıq".

Film nümayişindən sonra yaradıcı heyət tələbələrlə müzakirə aparıb. Ssenari müəllifi və rejissor Gəray Həsən, baş rolların ifaçıları Azər Aydəmir, Günay Əhməd, Nurlan Mürsəlzadə və Vüsalə Ağamalıyeva Ağayeva bu layihənin onların hər biri üçün xüsusi əhəmiyyət kəsb etdiyini, şanlı tariximizi yaşadıb gənc nəslə ötürməkdə mədəniyyət sahəsinin üzərinə də vəzifələr düşdüyünü bildiriblər.

Təəssüratlarını bölüşən Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Elmar Hüseyn müharibə iştirakçıları və onların ailə üzvlərinin təcrübələrini yaradıcı şəkildə olsa da, dəqiqliklə və təsirli şəkildə canlandıran bu milli kino nümunəsinə görə təşəkkürünü bildirib.

Tədbiri yekunlaşdıran ADA Universitetinin rektoru Hafiz Paşayev "Zəfər rəqsi" filmi heyətinə uğurlu layihəyə görə təbriklərini çatdırıb və bu qəbildən işlərin beynəlxalq səviyyədə də tanınması, Qarabağ Qələbəmizi təmsil etməsinə ehtiyac olduğunu deyib.

Qeyd edək ki, "Balakhani Operating Company LTD" hasilat şirkətinin dəstəyi ilə ASAN TV tərəfindən çəkilən qısametrajlı "Zəfər rəqsi" bədii filmi 2026-cı ildə Rusiya, Kanada, Hindistan, İsveç, Almaniya, Niderland Krallığı və Bolqarıstanda keçirilən Beynəlxalq Film festivallarında münsiflər heyətinin rəğbətini qazanıb, Türkiyədə TURAN Film festivalında TÜRKSOY təşkilatının xüsusi mükafatına layiq görülüb.

# Qəbələdən Şuşaya uzanan qəhrəmanlıq yolu

## Ömrünün iyirminci ilində şəhidlik zirvəsinə ucalan igid

**Qəbələnin adı çəkiləndə göz önündə uca dağlar, yaşıl meşələr, gur bulaqlar, qədim tarix və saf, mərd insanların obrazı canlanır. Azərbaycanın ən gözəl guşələrindən biri olan Qəbələ təbiətin səxavətlə bəxş etdiyi gözəllikləri ilə seçildiyi kimi, Vətəninə bağlı, torpağına sədaqətli oğulları ilə də tanınır. Qarabağ isə Azərbaycanın qəlbidir. Onun hər dağı, hər qayası, hər yamacı tariximizin bir səhifəsidir. Əsrarəngiz təbiətli Qəbələnin mərd bir oğlunun Qarabağın müqəddəs torpaqlarının azadlığı uğrunda döyüşməsi də sanki Azərbaycanın iki qədim yaddaşının bir igidin taleyində qovuşması idi.**



Rüstəm Atakişiyevin həyat yolu məhz belə bir qovuşmanın tarixidir. O, Qəbələnin Tüntül kəndində dünyaya göz açmış, sadə bir ailədə böyümüşdü. İki bacının bircə qardaşı idi. Onun ürəyində uşaqlıqdan adi arzulara sığmayan böyük bir istək yaşayırdı: hərbçi, özü də Xüsusi Təyinatlı Qüvvələrin əsgəri olmaq. Rüstəm bu arzusunu sadəcə ürəyində daşımırdı. Sosial şəbəkələrdə paylaşdığı bir cümlə onun xarakterini, məqsədini və gələcək taleyini sanki əvvəlcədən xəbər verirdi: "Hər şeyin bitdiyi yerdə xüsusi təyinatlılar başlar!" Bu sözlər onun üçün sadəcə bir cümlə deyildi. Bu, bir gəncin qarşısına qoyduğu məqsəd, özünə verdiyi söz idi. İki bacının sevimli qardaşı olan Rüstəm doğmalarına da fəxrlə deyirdi: "Bir gün əsgərlikdən qayıdacağam və hamınız deyəcəksiniz: baxın, xüsusi təyinatlı Rüstəm gəlir". Rüstəm o günləri səbirsizliklə gözləyirdi...

Rüstəm Zahid oğlu Atakişiyev 2007-2018-ci illərdə M.Murtuzov adına Tüntül kənd tam orta məktəbində təhsil almışdı. Erkən yaşlarından ailəsinə kömək etmək üçün çalışmağa başlamışdı. Hərbi təhsil almaq, snayperçi olmaq arzusunda idi. Amma ali təhsil almaq ona nəsib olmadı. Bəzən həyat insanın qarşısına elə yollar çıxarır ki, o yolun haraya aparacağını əvvəlcədən bilmək mümkün olmur. Rüstəmi isə yol Vətənə xidmətə aparırdı. 2019-cu ilin iyulunda Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlayan Rüstəm qısa müddətdə öz bacarığı, iradəsi və hərbi hazırlığı ilə digər əsgərlərdən seçildi. Elə buna görə də hərbi hissə rəhbərliyinin qərarı ilə xidmətini Xüsusi Təyinatlı Qüvvələrdə snayper manqasının baş snayperçisi kimi davam etdirdi. Uşaqlıq arzusu artıq gerçəyə çevrilmişdi. O, artıq bacılarına fəxrlə danışdığı həmin xüsusi təyinatlı Rüstəm idi. Qarşıda isə onu daha böyük bir sınaq gözləyirdi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başladı. Azərbaycan əsgəri illər boyu həsrətlə gözlənilən torpaqların azadlığı uğrunda döyüşə atıldı. Qəbələnin sakit dağlarından çox-çox uzaqlarda, Qarabağın od tutub yanan torpaqlarında Azərbaycanın igid oğulları tarix yazmağa başladılar. Rüstəm də həmin qəhrəmanlıq salnaməsini yaradan iştirakçılardan biri idi. Cəbrayılın, Füzulinin, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə vuruşurdu. Onun üçün artıq nə doğulduğu Tüntül kəndinin dağları, nə Qəbələnin meşələri uzaq idi. Çünki Vətənin hər qarışı onun üçün doğma idi.

Füzuli döyüşləri zamanı yaralansa da, bu, onu döyüş meydanından ayırmadı. Rüstəm silahını əlindən yerə qoymadı. Çünki onun qarşısında şəxsi həyatından daha böyük bir məqsəd dayanırdı: Vətənin torpaqlarını azad görmək. Döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv edən Rüstəm öz snayperçi məharəti ilə qarşı tərəflə amansız mübarizə aparırdı. Qəbələdə doğulan bu gəncin taleyi artıq Qarabağın tarixinə yazılırdı.

Şuşa...

Azərbaycanın tarixində, mədəniyyətində və mənəviyyatında xüsusi yeri olan bu qədim şəhərə gedən yol Rüstəmin son döyüş yolu oldu. 2020-ci il oktyabrın 21-də Şuşa istiqamətində gedən döyüşlərdə Rüstəm Atakişiyev şəhidlik zirvəsinə ucaldı. Onun ömrü cəmi iyirmi il çəkdi... Bir insan ömrünün başlanğıcı üçün çox qısa, Vətən tarixində iz qoymaq üçün isə bəzən kifayət qədər böyük zamandır. Rüstəm ömrünün iyirminci pilləsində ölüm yox, əbədiyyət qazandı.

Şəhid Rüstəm Atakişiyevin nəşi doğma Qəbələyə gətiriləndə onu böyük izdiham və dərin ehtiramla qarşıladılar. Bu dəfə Qəbələnin dağları, Tüntülün yolları başqa cür görünürdü. Bir zamanlar həmin küçələrdə məktəbə gedən, ailəsinə kömək edən, bacıları ilə söhbət edən, gələcək haqqında arzular quran Rüstəm geri qayıtmışdı. Amma əvvəlki Rüstəm kimi yox... Vətən uğrunda canından keçmiş şəhid kimi. Anasının, atasının, bacılarının, doğmalarının gözündə onun ömrü yarımçıq qalmışdı. Lakin xalqın yaddaşında Rüstəmin ömrü kəsilməmişdi. Bəzi ömürlər illərlə deyil, mənası ilə ölçülür. Rüstəm də qısa ömrünə böyük bir məna sığdırdı. Adı medallarda, özü xalqın yaddaşında yaşayır. Vətənin ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə iştirak edən, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirən Rüstəm Atakişiyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edildi. Bu təltiflər onun göstərdiyi qəhrəmanlığın dövlət tərəfindən verilən qiymətidir. Rüstəmin ən böyük mükafatı isə xalqın yaddaşında yaşamasıdır.

Rüstəmin bacıları onun sözlərini indi də xatırlayaraq ürəklərində deyirlər:

"Baxın, xüsusi təyinatlı Rüstəm gəlir..." Bəli, Rüstəm gəlir...

Şəhidlər yalnız torpağa tapşırılmır. Onlar Vətənin yaddaşına tapşırılır. Rüstəm Atakişiyev də Qəbələdən Qarabağa uzanan qəhrəmanlıq yolunun əbədi yolçusudur. Onun ömrü qısa oldu. Amma bu qısa ömrə bir igidin sığdıra biləcəyi ən böyük adı sığdırdı: Vətənə sədaqət, qəhrəmanlıq və şəhidlik!

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# Bakıda hava dəyişkən buludlu olacaq, bəzi rayonlarda yağış yağacaq

**Azərbaycanda sentyabrın 30-na gözlənilən hava şəraiti açıqlanıb.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi gündüz şimal-şərq küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 17-19, gündüz 21-25 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütunundan 763 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, 29-dan 30-na keçən gecə bəzi şərq rayonlarında yağıntıların güclənəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-20, gündüz 25-29, dağlarda gecə 4-8, gündüz 10-15 dərəcə isti olacaq.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti
539-49-20

BEYNƏLXALQ HƏYAT

# Hakerlər təxminən 3 milyon Pentaqon hərbçisinin məlumatlarını oğurlayıblar

**Hakerlər ABŞ Müdafiə Nazirliyinin Şəxsi Məlumat Mərkəzinin sistemlərinə giriş əldə ediblər.**

Şəbəkənin məlumatına görə, 2,7 milyondan çox hazırkı və 290 min keçmiş Pentaqon işçisinin məxfi məlumatları oğurlanıb. Bu barədə "ABC News" telekanalı bir mənbəyə istinadən xəbər verir.

Oğurlanmış fayllar arasında hərbi və mülki personalın fəaliyyəti ilə bağlı məlumatlar, eləcə də şəxsi informasiyalar var.



Bildirilir ki, hakerlər 2025-ci ilin oktyabrından bu ilin iyul ayına qədər məlumat mərkəzinə giriş əldə ediblər. Mənbənin dediyinə görə, problem artıq həllini tapıb. Pentaqon rəsmi olaraq sızma ilə bağlı şərh verməyib.

Pentaqonun Şəxsi Məlumat Mərkəzi ordunun şəxsi heyətinin qeydlərinin əsas saxlanclarından biri kimi xidmət edir. Orada 60 milyondan çox aktiv xidmətdə olan şəxsi heyət, ehtiyatda olanlar, mülki işçilər, podratçılar, təqaüdçülər və onların ailələri haqqında məlumatlar var.

# Macarıstan Parlamenti Peter Macyarın toxunulmazlığını ləğv edib

## Baş nazir deputatlardan qərarı dəstəkləmələrini istəyib

**Macarıstan Parlamenti Baş nazir Peter Macyarın, eləcə də Viktor Orbanın hökumətindən olan iki keçmiş nazirin toxunulmazlığını ləğv edib. Bu, siyasətçilərlə bağlı ayrı-ayrı cinayət işlərində araşdırmaların davam etdirilməsinə imkan verəcək.**

"Associated Press" agentliyinin məlumatına görə, deputatlar P.Macyarın, eləcə də keçmiş mədəniyyət naziri Balaş Hanko və keçmiş milli inkişaf naziri Mikloş Şestakın toxunulmazlığının qaldırılmasına səs veriblər.

Oğurluqda şübhəli bilinən P.Macyar "nüfuzuna xələl gətirmək cəhdlərini təkzib edə bilməsi" üçün toxunulmazlığının qaldırılmasını istəyib.



Ona qarşı istintaq hərəkatı 2024-cü ilin iyun ayında gecə klubunda baş verən hadisədən qaynaqlanır. Müstəntiqlər iddia edirlər ki, mübahisə zamanı P.Macyar onu mobil telefonu ilə çəkən bir kişinin əlindən cihazını alaraq Dunay çayına atıb.

Bu, P.Macyarın partiyasının parlament seçkilərində böyük qələbə qazanmasından təxminən iki il əvvəl baş verib və nəticədə Viktor Orbanın baş nazir vəzifəsini itirməsi ilə nəticələnib.

P.Macyar öz hərəkətlərini inkar etmir, lakin onların oğurluq kimi təsnif edilə bilməyəcəyinə inanır və istintaqı siyasi motivli adlandırır. O, bu işdə dəyən ziyanın 300 dollardan bir qədər çox olduğunu iddia edir.

Hökumət başçısı həmçinin prokurorluğu eyni zamanda özünün və V.Orban hökumətindəki iki keçmiş nazirin toxunulmazlığının qaldırılmasını tələb etdiyinə görə tənqid edib.

Səsvermədən əvvəl P.Macyar qanunvericilərə heç bir cinayət törətmədiyini və bütün hərəkətlərinə görə cavab verməyə hazır olduğunu bildirib.

# Papa Avropanı sülh naminə güzəştə getməyə çağırıb

**Roma Papası XIV Leo Avropa liderlərini danışıqlarda cəsarət göstərməyə və sülh naminə güzəştə getməyə razı olmağa çağırıb. O, həmçinin qeyd edib ki, sülh arzusunu "sadəlövh pasifizm forması" ilə qarışdırmaq olmaz.**

Papanın dediyinə görə, sülh onu təhdid edən təhlükələrə mütənasib səylər olmadan qorunub saxlanıla bilməz.



"Vatican News" rəsmi xəbər portalı pontifikin çıxışından sitat gətirir: "Bu gün özümüzdən soruşmalıyıq: dünyada sülhü təşviq etmək üçün həqiqətən konstruktiv səylər göstəririkmi, yoxsa sadəcə eskalasiyanı cilovlamağa və hələ qarşıda olduğuna inandığımız müharibələrə daha yaxşı hazırlaşmağa çalışırıq?"

Papa bu açıqlamanı Metsdə Avropa liderləri qarşısında çıxışı zamanı verib. O, Avropada davam edən silahlı münaqişəni hər gün mülki şəxslərin həyatına son qoyan mənasız bir qırğın adlandırıb. Pontifik həmçinin qanunun aliliyi və bütün insanların bərabərliyi də daxil olmaqla, Aİ-nin təsisçi dəyərlərini xatırlamağa çağırıb. "Reuters" agentliyi xəbər verir ki, onun çıxışı ayaq üstə alqışlarla qarşılanıb.

Səfərindən sonra keçirilən mətbuat konfransında Papa həmçinin Rusiya və Ukraynanı danışıqlara çağıraraq deyib: "Kilsə bu dəyərləri təşviq etmək məsuliyyətinə malikdir və həm Rusiyada, həm də Ukraynada, eləcə də digər ölkələrdə liderləri daim birləşməyə, danışıqlar masası arxasına oturmağa və dialoqa çağırır".

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Tailandda güclü yağış və daşqınlar 23 nəfərin həyatına son qoyub

**Tailandda leysan yağışlarının səbəb olduğu daşqınlar nəticəsində 23 nəfər həlak olub.**

AZƏRTAC "The Nation" qəzetinə istinadla xəbər verir ki, sentyabrın 16-dan ölkənin Banqkok da daxil olmaqla 29 əyalətində leysan yağışları davam edir.

Tailandın Fövqəladə Halların Qarşısının Alınması və Nəticələrinin Aradan Qaldırılması Departamentinin (DDPM) məlumatına görə, təbii fəlakət 2,6 milyondan çox insana təsir edib. Xilasetmə qrupları daşqınlardan zərər çəkmiş ərazilərdə sakinlərin təxliyəsini gücləndiriblər. Evləri tərk etmək məcburiyyətində qalan insanlar üçün 200-dən çox müvəqqəti yerləşdirmə mərkəzi yaradılıb.



Hakimiyyət orqanları yağıntıların intensivliyinin azalacağını gözləyir. Bununla belə, bir sıra ərazilərdə güclü yağışlar, qəfil daşqınlar və torpaq sürüşmələri təhlükəsi qalmaqdadır.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlıya anası

**CƏMİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurası sədrinin müavini Sabir İlyasova qardaşı

**CABİR İLYASOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurası sədrinin müavini Sabir İlyasova qardaşı

**CABİR İLYASOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3314
Sifariş 1257

Qiyməti 60 qəpik